RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 120 (8713) CÜMƏ, 11 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# ƏZİZ QARDAŞIM...



## BÖYÜK ŞƏXSİYYƏTLƏRİN DOSTLUĞU DA BÖYÜK OLUR

**Dostluq böyük hissdir.**

**Əslində bu hissə insanları bir-birinə bağlayan gözəgörünməz tellər də demək olar!**

**Bu hiss, duyğu, tel həm də müqəddəsdir, safdır, ülvidir!**

**Çünki onun mayasında paklıq, təmizlik, təmənnasızlıq dayanır!**

*Dostluğun mahiyyətində dostlar arasında bir düşüncə bənzərliyi, əməl eyniliyi, həyata baxışda oxşarlıq da müşahidə olunur.*

*Bütövlükdə dostluq mənəvi keyfiyyətdir, mənəvi dəyərdir.*

*Həm də hər adamın bacarmadığı işdir!*

Görünür, bu nəcib duyğunu Allah-Təala hamıya qismət etmir!

Edəndə də birinə az, digərinə çox pay düşür!

**Əslində dostluq etməyi bacarmaq özü bir istedaddır, vergidir!**

**Çoxlu dostu olmaq, bəlkə də çoxlu var-dövlət sahibi olmaq deməkdir!**

Dostun böyüyü, kiçiyi, varlısı və kasıbı, imkanlısı və imkansızı olmur!

Necə deyərlər, dost elə dostdur!

*Amma böyük şəxsiyyətlərin dostluğu da böyük olur!*

*Çünki bu dostluqdan çoxlarına, hətta minlərə və milyonlara belə pay düşə bilir.*

*Təmiz, pak və təmənnasız pay!*

Bəzən dostluq o qədər mehribanlaşır, sıxlaşır ki, qardaşlığa çevrilir.

**Dövlət başçılarının dostluğu isə xalqlar arasında münasibətləri ən yüksək səviyyəyə qaldıra bilir!**

❖ ❖ ❖

Adətən qardaşlar doğma olurlar.

Amma nadir hallarda xasiyyətcə bir-birlərinə bənzəyirlər!

Qardaşların bir-birlərilə dostluq etməsi də az təsadüf olunandır.

Dostların qardaş, yaxud qardaşların dost olması insanı məmnun və xoşbəxt edən haldır.

Belə insanlara, onların yaxın, isti münasibətlərinə həsəd aparmağa dəyər!

**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı dostluq və qardaşlıq kimi yüksək mənəvi bağlılıq da artıq çoxları üçün yüksək nümunəyə çevrilib.**

❖ ❖ ❖

Həmişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin "Tanrı variantı" ilə həll ediləcəyinə inanmışam.

Xeyr, elə düşünməmişəm ki, Tanrımız uca göylərdən enərək bizim yerimizə müharibə aparacaq, erməniləri Qarabağdan qovaraq torpaqları düşməndən təmizləyəcəkdir.

*İnanmışam ki, Allah-Təala düşməni elə vəziyyətə salacaq, havadarlarının başını elə qarışdıracaq ki, biz öz gücümüzlə, həm də düşməndən qisasımızı alaraq mənfur ermənini məğlub və məhv edəcəyik!*

*Əslində belə də oldu!*

*Bu işdə Allah özü bizə kömək etdi!*

**Eyni zamanda qəti əminəm: əgər Azərbaycana cənab İlham Əliyev, qardaş Türkiyəyə isə hörmətli Rəcəb Tayyib Ərdoğan rəhbərlik etməsəydi, biz XXI əsrin ən yeni müharibəsini apararaq 44 gündə möhtəşəm zəfərə imza ata bilməzdik!**

**Bu dostluq, qardaşlıq və birlik Azərbaycan Ordusunu belə qüdrətli etdi!**

Həm də təkcə ordumuzu yox!

Ermənilərin açıq və gizli müdafiəçiləri, dəstəkçiləri çox idi!

Elə müharibə davam edən müddətdə bəzi dövlət başçılarının, beynəlxalq qurumların, bir sıra dünya KİV-inin mövqeyini, çıxardıqları oyunları yada salaq...

*Türkiyə ilə Azərbaycan birlikdə, bir yerdə olmasaydı, hərbi əməliyyatların və sonrakı hadisələrin hansı məcrada inkişaf edəcəyini, hansı nəticəyə gətirəcəyini bilmək olmazdı!*

### Dostluğun da tarixi olur

SSRİ-nin görmək istəmədiyi dövlətlərdən biri qardaş Türkiyə idi!

Bəlkə bu, Rusiyanın Türkiyənin sələfi olan Osmanlı İmperiyası ilə dəfələrlə müharibə etməsi, yaxud SSRİ-də çoxsaylı türk kökənli xalqların yaşamasından doğan "ehtiyatlı davranmaqla" bağlı idi?

Qəti nəsə söyləməkdə çətinlik çəkirəm...

*Gördüyümüz və bildiyimiz o olub ki, Türkiyəyə yolumuzu həmişə bağlı saxlamağa çalışıblar!*

*Qardaş ölkəyə kimsə gedərdisə, Moskvanın icazəsi ilə və Mockvadan keçməklə gedə bilərdi!*

Doğmalarından kimsənin Türkiyədə yaşaması isə həmin adamın Sov.İKP üzvlüyünə qəbulu yolunu bağlayardı...

**Bu gün isə ən çox aviareyslər Türkiyə ilə Azərbaycan arasındadır, üstəlik hər iki dövlətin vətəndaşları adi şəxsiyyət vəsiqələri ilə bir-birlərinə qonaq gedirlər...**

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında və möhkəmlənməsində hər iki xalqdan olan görkəmli şəxsiyyətlərin böyük rolu olmuşdur.

*Ardı 3-cü səh.*



## Avropa çempionluğuna gedən yol Bakıdan da keçir

### Paytaxtımız "Avro-2020"nin 4 matçına evsahibliyi edir

Bu gün futbol üzrə XVI Avropa çempionatı start götürür. İyulun 11-dək davam edəcək çempionatın ilk oyununda A qrupunda İtaliya ilə Türkiyə yığmaları qarşılaşacaq.

Qitə çempionatında iştirak edəcək 24 komanda 6 qrupa bölünüb. Bu formata əsasən, hər qrupda ilk iki yeri tutan komandalar səkkizdəbir finala vəsiqə qazanacaq. Bundan başqa, dörd qrupda üçüncü yeri tutan komandalar da səkkizdəbir finalda oynamaq hüququ əldə edəcək. Bir sözlə, çempionatda iştirak edən 24 komandadan 8-i mübarizəni dayandırmalı olacaq və 16-sı yola davam edəcək.

*Bax: səh. 9*

## Azərbaycan Müdafiə Nazirliyi:
## "Ermənistan silahlı qüvvələri Kəlbəcər istiqamətində bölmələrimizə atəş açıb"

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin Kəlbəcər istiqamətində bölmələrimizə atəş açması ilə bağlı məlumat yayıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib:

"Ermənistan Müdafiə Nazirliyi Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində yerləşən Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinə atəş açması barədə açıqlama yayıb.

Ermənistan silahlı qüvvələri tərəfindən Silahlı Qüvvələrimizin mövqelərinə atəş açılması faktı öz təsdiqini tapıb. Açılmış atəş nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti sırasında həlak olan və ya yaralanan yoxdur.

Bu fakt bir daha onu sübut edir ki, Ermənistan tərəfi seçki öncəsi qəsdən iki ölkənin dövlət sərhədi istiqamətində vəziyyəti gərginləşdirmək və hərbi təxribatlar törətmək siyasətini davam etdirir.

Baş vermiş hadisəyə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür".

## Azərbaycan sənayeləşmədə müəyyən etdiyi hədəflərə nail olur

### Tezliklə Ağdam Sənaye Parkı da bu sahədə öz sözünü deyəcək

Dünya Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında həyata keçirdiyi bərpa-quruculuq işlərini diqqətlə izləyir. Hətta bir çox tanınmış xarici şirkətlər bu prosesdə yaxından iştirak etmək üçün dövlətimizin başçısına müraciət etmişdir.

Prezident İlham Əliyev bərpa-quruculuq işlərinin ilk anından bəyan edib ki, həmin ərazilərdə istehsal, nəqliyyat və xidmət sahələri yüksək texnologiyalardan istifadə olunmaqla yaradılacaq. Hazırda Füzulidə inşa edilən hava limanında işlər sürətlə davam edir, Zəngilan aeroportunun tikintisi üçün isə hazırlıq başa çatmaq üzrədir. Eyni zamanda, avtomobil və dəmir yollarının çəkilişi aparılır, elektrik xətləri, ötürücü yarımstansiyalar inşa edilir. Artıq Şuşa şəhərində yeni yarımstansiya istifadəyə verilib, Qarabağın digər ərazilərindəki su elektrik stansiyaları da bərpa olunur.

*Ardı 5-ci səh.*

◆ **Sosial oçerk**

## Qürbət necə vətən olur

### 30 ildə məshəti türkü üçün Azərbaycan vətənə, Quba yurd yerinə çevrilib

"İnsanlar da ağaclar kimidir - bir yerdə kök atanda qollu-budaqlı, mer-meyvəli, yeri tez-tez dəyişəndə isə sısqa, cılız olur, zəif düşürlər",- deyir məshəti türkü İmran Həsənov. Artıq 30 ildir ki, ailəsi ilə Qubaya köcüb, burada yurd salıb, kök atıb, bərkiyib.

Onun və bütün məshəti türklərinin Gürcüstanda, Özbəkistanda yaşadıqları faciələri qələmə alsan, gərək silsilə romanlar yazasan. Gürcüstandan Özbəkistana, oradan isə az qala bütün dünyaya səpələniblər. Kimin hara əli çatıbsa, oraya pənah aparıb. Amma heç kim ruhdan düşməyib, harada olublarsa, torpağa, yerə sarılıblar, Vətən kimi seviblər oranı, gülüstana çeviriblər.

- Biz özbəklərlə çox mehriban dolanmışıq, qaynayıb qarışmışıq, qohum olmuşuq. Elə mənim doğma bacım özbəyə ərə getmişdi, - deyə İmran həyatını geri vərəqləyir. - Amma Qdlyanın ayağı Özbəkistana dəyən kimi yer yerindən oynadı. Özbəkistanın siyasi rəhbərləri yox, bütün özbəklər və digər xalqlar, o cümlədən biz - məshəti türkləri də hədəfə gəldik. Özbəkistanda Fərqanə hadisələri baş verdi, dalğası Daşkəndə çatanda bizə də dəydi. Özbəklərin heç bir günahı yox idi, hadisələri ermənilər idarə edirdilər. Onlar tərəfindən özbəklərin evlərinə silahlı basqınlar təşkil edilir, bütün vəhşiliklər şayiələrdə və KİV-də türklərin ayağına yazılırdı. Açıq və gizlində silahlar paylanırdı.

*Ardı 5-ci səh.*

## Erməni faşizminin terror siması

*1989-cu ilin 16 sentyabr, 1990-cı ilin 18 fevral, 11 iyul, 10 avqust, 30 noyabr, 1991-ci ilin 9 yanvar, 30 may, 19 iyun, 31 iyul, 2 avqust, 21 avqust, 8 sentyabr, 26 sentyabr, 19 oktyabr, 20 noyabr, 26 dekabr, 1992-ci ilin 8 yanvar, 28 yanvar, 26 fevral, 22 mart, 28 mart, 18 aprel, 20 may, 1993-cü ilin 28 fevral, 2 iyun, 22 iyul, 30 avqust, 1994-cü ilin 1 fevral, 18 mart, 19 mart, 13 aprel, 3 iyul tarixləri....*

"Tbilisi-Bakı", "Şuşa-Bakı", "Tərtər-Kəlbəcər", "Tbilisi-Ağdam", "Şəmkir-Gəncə" sərnişin avtobusları, Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu, "Moskva-Bakı" sərnişin qatarı (Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında), hərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın, yenidən "Moskva-Bakı" sərnişin qatarı (Dağıstanın Temirtau stansiyası yaxınlığında), "Ağdam-Xocavənd", "Ağdam-Qaradağlı" sərnişin avtobusları, Türkmənistandan "Krasnovodsk-Bakı" marşrutu ilə hərəkət edən dəniz bərəsi, "Kislovodsk-Bakı" sərnişin qatarı (Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında)...

Bu tarixlərin hər birinin arxasında bir faciə dayanıb. Bu məkanların hər biri Azərbaycan xalqına qarşı törədilmiş bir faciənin şahidi olub. Faciələrin nəticələri, baş verdikləri məkanlar fərqli olsa da, onların ümumi adları eynidir - ERMƏNI TERRORU...

Erməni terrorunun saylarını sadalasaq, bitərmi? Bu terrorun yaşını demək mümkündümü? O, nə zaman başlayıb, nə zaman bitəcək? Bu sualların cavabına konkret cavab vermək olmur, çünki ermənilər bugün də terroru davam etdirməkdə israrlıdırlar.

*Ardı 8-ci səh.*



# Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib





İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev iclası açaraq Azərbaycan Respublikası Prezidentinin ötən ay ərzində Şuşa və Ağdama səfərlərini qeyd edib, bu səfərlər zamanı dövlət başçısının aparılan bərpa və yenidənqurma işlərinə yerində baxış keçirdiyi, bir sıra təməlqoyma mərasimlərində iştirak etdiyini və zəruri tapşırıqlar verdiyini vurğulayıb. Samir Nuriyev dövlət başçısının verdiyi konkret göstərişlərin və qarşıya qoyduğu vəzifələrin Qərargahın gündəlik fəaliyyətində rəhbər tutulduğunu diqqətə çatdırıb.

İclasda işğaldan azad edilmiş ərazilərdə əsas prioritetlərdən biri olan minalardan təmizləmə, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturu layihələrinin icrasının vəziyyəti, su ehtiyatlarının idarə olunması və səmərəli istifadəsi, tarixi-mədəniyyət abidələrinin inventarlaşdırılması və bu abidələrin qorunması sahəsində həyata keçirilən tədbirlər, şəhidlərin ailə üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, yaralıların, müharibə veteranları və iştirakçılarının sosial təminatı məsələlərinə dair məruzələr dinlənilib və zəruri tapşırıqlar verilib.

Azərbaycan Respublikasının Prezidentinin azad edilmiş torpaqlarda bərpa və yenidənqurma işlərinin ən yüksək standartlara uyğun həyata keçirilməsi ilə bağlı tapşırığının icrası üçün bütün resursların səfərbər edilərək səmərəli istifadəsinin Qərargahın əsas hədəfi olduğu qeyd edilib.

# Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlər mükafatlandırılıb

İyunun 10-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Birləşmiş Millətlər Təşkilatının (BMT) Dayanıqlı İnkişaf Məqsədləri üzrə seçilmiş 17 gənc səfirin təqdimat və mükafatlandırma mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, gənc səfirlərin seçimi Gənclər və İdman Nazirliyinin və BMT-nin İnkişaf Proqramının ölkəmizdə ilk dəfə birgə həyata keçirdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni əsasların yaradılması" layihəsi çərçivəsində baş tutub.

Təqdimat mərasimində Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakasseti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev və Milli Məclisin deputatı Məzahir Əfəndiyev iştirak ediblər.

Baş nazirin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, bu, uzunmüddətli və eyni zamanda özünü doğruldan layihələrdən biridir. Layihə Azərbaycan gənclərinin beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirakı baxımından mühüm əhəmiyyət kəsb edir. Fəaliyyətini başa vuran gənc səfirlərin uğurlarını müsbət qiymətləndirən Əli Əhmədov onları təbrik edib. Baş nazirin müavini gənclərin etimadı doğruldacaqlarına və üzərlərinə düşən missiyanı uğurla həyata keçirəcəklərinə əminliyini bildirib, onlara uğurlar arzulayıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev gənc səfirləri təbrik edərək onlara bu məsuliyyətli işdə uğurlar arzulayıb. Gənclərin böyük uğurlar qazanacaqlarına inamını ifadə edən nazir müavini deyib ki, gənc səfir seçilmək üçün müsabiqəyə müxtəlif regionlardan 300-ə yaxın ərizə daxil olub. Şəffaf seçim prosesi çərçivəsində həmin gənclər arasından müvafiq bilik və bacarıqlara malik 17 nəfər Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanda növbəti gənc səfirlər seçiliblər.

BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi Alessandro Frakasseti gənc səfirlərin seçimində fəal dəstəyinə görə Gənclər və İdman Nazirliyinə təşəkkürünü bildirib. O, gənclərin hər birinin təmsil edəcəkləri sahədə uğurlu olacaqlarına inandığını qeyd edib.

Qeyd edək ki, 2018-2020-ci illərdə fəaliyyət göstərmiş Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlərin uğurlu fəaliyyəti və Dayanıqlı İnkişaf Məqsədlərinin ölkə ərazisində təbliğində göstərmiş olduqları səylər layihə üzrə növbəti gənc səfirlərin seçilməsini zəruri edib. Ötən illərdə layihənin gənclərə qazandırdığı bilik və bacarıqlar 2021-2023-cü illər üzrə seçilmiş gənc səfirlərin ölkədə Dayanıqlı İnkişaf Məqsədləri ilə əlaqədar həyata keçirilən təşəbbüslərdə daha fəal və innovativ təbliğat vasitələri ilə fəaliyyət göstərəcəklərinə ciddi əsas yaradır.



# Azərbaycanla Ukrayna strateji tərəfdaş ölkələrdir

İyunun 10-da "Ukrayna-Azərbaycan: əməkdaşlıq perspektivləri" mövzusunda beynəlxalq "dəyirmi masa" keçirilib.

Videokonfrans formatında keçirilən tədbirdə Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin məsul şəxsləri, Ukrayna Ali Radasının Azərbaycanla dostluq qrupunun üzvləri, Ukrayna azərbaycanlılarının diaspor təşkilatlarının təmsilçiləri, ictimai və akademik çevrələrin nümayəndələri iştirak ediblər.

Videokonfransda Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev çıxış edərək bildirib ki, Azərbaycanla Ukrayna strateji tərəfdaş ölkələrdir və dövlət başçılarımızın sayəsində bu münasibətlər yeni səviyyəyə yüksəlib. Beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizə daim göstərdiyimiz dəstək də qarşılıqlı etimadın daha da artmasını şərtləndirib.

Deputat Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etdiyi 44 günlük Vətən müharibəsində Ukrayna dövləti və xalqının verdiyi dəstəyi yüksək qiymətləndirib. O, parlamentlərarası müstəvidə münasibətlərin genişləndirilməsindən bəhs edib, ölkələrimizin bir çox sahələrdə həm ikitərəfli qaydada, həm də beynəlxalq səviyyədə əməkdaşlığının vacibliyini vurğulayıb.

Sonra çıxış edənlər iki ölkə arasında parlamentlərarası əlaqələrin genişləndirilməsi, iqtisadi, mədəni, humanitar, sosial, təhsil və digər sahələrdə münasibətlərin gələcək inkişaf perspektivləri, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, investisiyaların təşviqi, regional təhlükəsizliyin möhkəmləndirilməsi kimi aktual məsələlər barədə fikirlərini səsləndiriblər.

"Dəyirmi masa"nın moderatoru, jurnalist və ictimai xadim Yevgeni Androşuk videokonfransa yekun vuraraq tədbirə qatılanlara təşəkkür edib. Moderator bu cür tədbirlərin keçirilməsinin Azərbaycan və Ukrayna arasında əlaqələrin daha da inkişafına, böyük əməkdaşlıq potensialının tam reallaşdırılmasına öz faydasını verəcəyinə əminliyini ifadə edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Əfqanıstan Azərbaycanın haqq işini dəstəkləyən dövlətlərdəndir

İyunun 10-da Milli Məclisdə ADA Universitetində (Azərbaycan Diplomatik Akademiyası) təlim keçən Əfqanıstan İslam Respublikasının diplomatları ilə görüş olub.

Görüşdə Milli Məclisin Əfqanıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Qasımlı qonaqları salamlayaraq Azərbaycan-Əfqanıstan parlament əlaqələrindən danışıb. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə verdiyi dəstəyə görə Əfqanıstan dövlətinə, parlamentinə və xalqına təşəkkürünü ifadə edib.

Söhbət zamanı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva 30 il Ermənistanın işğalı altında qalan torpaqlarımızın azad edilməsi ilə Cənubi Qafqaz regionunda davamlı sülhün və əmin-amanlığın təmin olunmasına münbit şərait yarandığını bildirib. Bölgədə yaranmış yeni reallıq və azad olunmuş ərazilərdə həyata keçirilən layihələrdən söz açıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Asim Mollazadə qonaqlara Azərbaycanın tarixi və mədəniyyəti, parlament ənənələri, Şərq aləmində ilk parlamentin məhz Azərbaycanda yarandığı, ölkənin siyasi sistemi, müstəqil Azərbaycan dövlətinin əsas dəyərləri, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqımızın 2020-ci ildə qazandığı şanlı Qələbənin bölgə üçün əhəmiyyəti və bir sıra digər mühüm məsələlər barədə gənc əfqan diplomatlarına məlumat verib.

Söhbət zamanı Milli Məclisin deputatları ADA Universitetinin həyata keçirdiyi bu proqram çərçivəsində müxtəlif ölkələrdən gələn gənc diplomatların Azərbaycanla tanışlıq imkanı qazanmasından məmnun olduqlarını bildiriblər. Bu proqramın həyata keçirilməsində Milli Məclisin ADA ilə yaxından əməkdaşlıq etdiyini nəzərə çatdırıblar. Deputatlar Azərbaycan-Əfqanıstan əməkdaşlığının perspektivlərinə toxunaraq xalqlarımız arasındakı tarixi bağlardan danışıblar, əlaqələrimizin daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər. Azərbaycan parlamentinin nümayəndələri gənc əfqan diplomatlarını maraqlandıran suallara cavab veriblər, gələcək fəaliyyətlərində onlara uğurlar diləyərək tövsiyələrini bildiriblər.

Görüşdə Əfqanıstanın Azərbaycandakı səfiri Amanullah Ceyhun və digər rəsmi şəxslər iştirak ediblər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# ABŞ-la iqtisadi əlaqələrin inkişafı müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Rikerlə görüşüb.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, M.Cabbarov ABŞ-la iqtisadi, ticarət, sənaye və sair sahələrdə tərəfdaşlığın inkişaf etdiyini, ikitərəfli iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün müqavilə-hüquq bazasının möhkəmləndirilməsi istiqamətində işlərin görüldüyünü diqqətə çatdırıb.

Görüşdə ölkəmizdə həyata keçirilən islahatlar, Azərbaycanın sosial-iqtisadi inkişafına dair milli prioritetlər və qarşıya qoyulan hədəflər diqqətə çatdırılıb, "yaşıl iqtisadiyyat" və bərpaolunan enerji layihələrinə önəm verildiyi qeyd edilib.

İqtisadiyyat naziri Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı, kiçik və orta biznesin iqtisadiyyatda rolunun artırılması, nəqliyyat-tranzit potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər barədə məlumat verib, dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan İnvestisiya Holdinqinin yaradıldığını bildirib.

ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən F.Riker regionda dayanıqlı sülhün bərqərar olmasının, regional inkişafın önəmini vurğulayıb, ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında, xüsusilə minalardan təmizləmə fəaliyyətində iştirakda marağını ifadə edib.

Görüşdə ABŞ-la iqtisadiyyatın müxtəlif sahələrində tərəfdaşlığın, iqtisadi-ticarət, investisiya əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Şeyxülislam Allahşükür Paşazadə KAICIID Direktorlar Şurasının videokonfrans formatında keçirilən sessiyasında iştirak edib

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə iyunun 9-da KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Tərəflər Şurası və Direktorlar Şurasının videokonfrans formatında keçirilən birgə sessiyasında iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Shanti Ashram" təşkilatının direktoru Kezevino Aramın sədrliyi ilə keçən sessiyada Şeyxülislam A.Paşazadə ilə yanaşı, Direktorlar Şurasında təmsil olunan Ekumenik Patriarxatının Kadıköy (Xalxidon) Mitropoliti Emmanuel, Vatikanın Dinlərarası dialoq üzrə Pontifik şurasının sədri Kardinal Migel Ayuso, Livan Milli Xristian-Müsəlman Dialoq Komitəsinin Baş katibi Məhəmməd Sammak, Yaponiya Rizxo Kosey-Kay Buddist təşkilatının prezidenti Koşo Nivano, İngilis kilsəsinin dinlərarası məsələlər üzrə məsləhətçisi Riçard Sudvort, İmam Məhəmməd bin Saud Universitetinin təmsilçisi Hamad əl-Məcid, Amerika Yəhudi Komitəsinin Dinlərarası məsələlər üzrə beynəlxalq direktoru baş ravvin David Rosen, habelə Beynəlxalq Mərkəzin Baş katibinin müavini Alvaro Albasete iştirak ediblər.

Tədbirdə cari məsələlər ətrafında müzakirələr aparılıb və hesabatlar dinlənilib. Katibliyin əməkdaşları KAICIID-in dünyanın bir sıra ölkələrində, o cümlədən Nigeriyada, Mərkəzi Afrika Respublikasında, Myanmada, eləcə də ərəb regionunda fəaliyyəti barədə ətraflı məlumat verdilər.

Şeyxülislam Allahşükür Paşazadə tədbirdə çıxış edərək Azərbaycan və Qafqaz müsəlmanlarının səmimi salamlarını, öz xeyir-dualarını iştirakçılara çatdırıb.

A.Paşazadə son günlər Hindistanda pandemiyadan çoxsaylı ölüm halları ilə bağlı başsağlığı verib və dualar edib ki, Allah-Təala yaxın zamanda bəşəriyyəti COVID-19 bəlasından xilas etsin.

Gündəlikdə duran, müzakirə olunan məsələlər barədə fikir və tövsiyələrini onlayn sessiya iştirakçılarının diqqətinə çatdıran QMİ sədri A. Paşazadə KAICIID-in nəzdində müxtəlif regionları təmsil edən dini liderlər şurasını təsis etmək təşəbbüsü ilə çıxış edib. Təşəbbüs iştirakçılar tərəfindən müsbət dəyərləndirilib.

Dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAICIID-in 9 nəfərlik Direktorlar Şurasında yer alan müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə pandemiya şəraitinə baxmayaraq, təşkilatın proqram üzrə layihə və təşəbbüslərin həyata keçirilməsi yönündə səylərinin davam etdirildiyini məmnunluqla vurğulayıb, Azərbaycanda bu istiqamətdə görülən işlərdən bəhs edib.

Birgə sessiya iştirakçıları tərəfindən Azərbaycan dövlətinin dünyada dinlərarası dialoq və əməkdaşlığa verdiyi töhfələr qeyd olunub.

Onlayn sessiya məhsuldar keçib.

# Azərbaycan nümayəndə heyəti Avropa Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçkilərdə iştirak edib



Avropa Olimpiya Komitəsinin (AOK) iyunun 10-da Afinada keçirilən 50-ci Baş Assambleyasında Yunanıstanın Milli Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos AOK-un prezidenti seçilib.

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, o, AOK tarixində 9-cu prezident kimi səlahiyyətlərinin icrasına başlayıb.

Azərbaycanı toplantıda Milli Olimpiya Komitəsinin nümayəndələri - MOK baş katibinin müavini Azər Əliyev, marketinq şöbəsinin müdiri Mehman Kərimov, beynəlxalq şöbənin rəhbəri Anar Bağırov, eləcə də Avropa Gimnastika Federasiyasının prezidenti Fərid Qayıbov və Azərbaycanın Yunanıstandakı səfiri Anar Hüseynov təmsil ediblər.

AOK-un Baş Assambleyasının toplantısında qurumun digər orqanlarına da seçkilər keçirilib. AOK-un baş katibi vəzifəsinə Rafael Paqnozzi (İtaliya), vitse-prezidenti vəzifəsinə isə Daina Qudzineviciute (Litva) seçilib. 2021-2025-ci illər üçün AOK İcraiyyə Komitəsinə isə Jan Mişel Brun (Fransa), Annamari Felps (Böyük Britaniya), Berit Kyoll (Norveç), Hasan Arat (Türkiyə), Corce Visatski (Serbiya), Viktoriya Kabezas (İspaniya), Xose Manuel Arauxo (Portuqaliya), Mixay Kovaliu (Rumıniya), Zlatko Matesa (Xorvatiya), Kristina Vasilianov (Moldova), Liney Halldorsdottir (İslandiya) və Uşi Şmitz (Almaniya) seçiliblər.

# Azərbaycan və Türkiyə parlamentlərinin strukturları arasında əməkdaşlığın genişləndirilməsi faydalıdır

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanovun başçılıq etdiyi və işçi qrupun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Eldar Quliyev, Ramin Məmmədov, Ağalar Vəliyev, Səttar Möhbalıyevin daxil olduğu nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin (TBMM) milli təhsil, mədəniyyət, gənclər və idman komissiyasının sədri Əmrullah İşlər ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım və qrup üzvlərinin də iştirak etdikləri görüşdə Milli Məclislə TBMM, eləcə də parlamentlərin müvafiq komissiyaları arasındakı münasibətlərdən bəhs olunub, təhsil, mədəniyyət, gənclər və idman sahəsindəki əlaqələrin inkişafı və perspektivlər yüksək dəyərləndirilib.

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycanda, Türkiyə parlamentini komissiya sədri Əmrullah İşlər isə Türkiyədəki təhsil, mədəniyyət, gənclər və idman sahələrini əhatə edən dövlət siyasətinin ayrı-ayrı istiqamətləri ilə bağlı geniş məlumat veriblər.

Adıçəkilən sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə dair imkanlar nəzərdən keçirilib. Vurğulanıb ki, Azərbaycan və Türkiyə parlamentlərinin strukturları arasında əməkdaşlığın genişləndirilməsi imkanları geniş və faydalıdır.

# Siyasi məsləhətləşmələr aparılıb

İyunun 10-da Ankarada Azərbaycan və Türkiyə Xarici İşlər nazirlikləri arasında iki ölkənin xarici işlər nazirlərinin müavinləri səviyyəsində növbəti siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələr zamanı ikitərəfli və çoxtərəfli münasibətlərə dair məsələlər müzakirə mövzusu olub. Siyasi məsləhətləşmələr çərçivəsində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfovun Türkiyə Respublikasının xarici işlər nazirinin müavinləri Yavuz Selim Kıran və Sedat Önalla görüşləri keçirilib.

Görüşlər zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər müzakirə olunub, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.



# ƏZİZ QARDAŞIM ...

## BÖYÜK ŞƏXSİYYƏTLƏRİN DOSTLUĞU DA BÖYÜK OLUR

*Əvvəli 1-ci səh.*

Dünyada baş verən bir sıra proseslərin təsirindən bu dostluq əlaqələri daim düz xətlə inkişaf etməmiş, dövrün müəyyən sınaqlarına sinə gərmişdir.

**Bu dostluğun təməlini iki dahinin söylədiyi əbədi fikirlər təşkil edir!**

**Və hamı dönə-dönə, sevə-sevə həmin müdrik kəlamları məhəbbət və qürurla səsləndirir:**

- **Mustafa Kamal Atatürk:** *"Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir".*
- **Ulu Öndər Heydər Əliyev:** *"Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir".*

*Tarixin iki sınağını da xatırlatmaq istəyirik:*

- 1915-1916-cı illərdə baş verən Çanaqqala savaşında Türkiyənin ölüm-dirim məsələsi həll olunurdu. Həmin döyüşlərdə üç minə yaxın həmvətənimiz Osmanlı imperatorluğunun ordusu sıralarında könüllü olaraq döyüşmüş, Türkiyənin ərazi bütövlüyü uğrunda gedən bu qanlı döyüşlərdə şəhid olmuşdur!
- 1918-ci ilin martında daşnak S.Şaumyanın başçılığı ilə azərbaycanlılara qarşı soyqırımı törədilmiş, 30 mindən çox həmvətənimiz Bakı, Quba, Şamaxı və digər ərazilərdə qətlə yetirilmişdir!

Nuru Paşanın rəhbərliyi ilə köməyə gələn türk qardaşlarımız Qafqaz İslam Ordusunun vasitəsilə paytaxt Bakını erməni-bolşevik işğalından azad etmiş, düşmənə sarsıdıcı zərbələr vurmuş, Azərbaycan Xalq Cumhuriyyəti hökumətinin Gəncədən Bakıya köçməsinə şərait yaratmışdır.

**Bu dostluğun təmizliyini və dürüstlüyünü sübut edən daha bir maraqlı fakt:**

*1920-ci il may ayının 3-də Mustafa Kamal Paşa Şərq Cəbhəsi komandiri Kazım Qarabəkir Paşaya aşağıdakı məzmunda bir məktub yazır: "Dövlətdə heç pul qalmadı. Ölkə daxilində pul təmin edə biləcəyimiz bir qaynaq yoxdur. Başqa qaynaqlardan pul əldə edənə qədər Azərbaycan hökumətindən borc pul alınmasını təşkil etmənizi istəyirəm".*

*Qardaş müraciətinə cavab verən Nəriman Nərimanov borc kimi yox, Azərbaycan xalqının yardımı kimi ilk olaraq 30 sistern neft, 2 sistern benzin, 8 sistern kerosin göndərir.*

*1921-ci ildə Azərbaycan Türkiyəyə 62 sistern neft göndərmiş və bundan sonra savaş qurtarana qədər eyni dəyərdə neft və üç vaqon kerosin göndərmə öhdəliyi götürmüşdü.*

*1922-ci ildə Batum yolu ilə Azərbaycan tərəfdən 9 min tondan çox kerosin və 350 ton benzin yardımı edilib.*

*Həmçinin 1921-ci ildə Nərimanov Azərbaycan xalqı adından Türkiyəyə 500 kq qızıl göndərmişdi. Türkiyədə bunun 200 kq-ı dövlət büdcəsinə, qalanı isə silah və sursat üçün istifadə edilmişdi.*

*Daha sonra Nərimanov 10 milyon qızıl pulu Ankaraya göndərmişdi. Bu yardımlar sayəsində Türkiyədə döyüş içində olan ölkənin vəziyyəti xeyli düzəlmişdi.*

**Azərbaycanın Qurtuluş savaşı aparan qardaşına göndərdiyi bütün bu pul, yanacaq və digər ləvazimatlar borc yox, yardım idi!**

*...Mustafa Kamal Paşa Nəriman Nərimanova məktub yazaraq, yardımlarına görə təşəkkürünü bildirir, amma bu dəfə borc kimi yenə də pul və yanacaq istəyir. Nəriman Nərimanov isə ona belə cavab verir: "Paşam, türk millətində bir ənənə vardır, qardaş qardaşa borc verməz, qardaş qardaşın hər çətin durumunda əlindən tutar. Biz qardaş xalqıq, hər zaman və hər şərtlər altında bir-birimizin əlindən tutacağıq. Bu gün etdiklərimiz bir qardaşın qardaşına etdiklərindən başqa bir şey deyildir".*

### Dövlətlərini yüksəldənlər və gücləndirənlər

**Dünya gücləri heç zaman nə Türkiyənin güclənməsini, nə də Azərbaycanın bir dövlət kimi müstəqilliyini istəmiş, imkanları çatan yerə qədər buna mane olmağa çalışmışlar.**

Hərdən buna nail ola bilmişlər.

Kənardan gücləri çatmadıqda isə ölkəni içəridən qarışdırmış, "parçala, hökm sür" siyasəti yeritmiş, dövləti özlərindən asılı vəziyyətdə saxlamağa çalışmışlar.

Kədərli bir fakt.

Ötən əsrin doxsanıncı illərində, AXC-Müsavat cütlüyünün iqtidarı dövründə Azərbaycan özünün ən ağır günlərini yaşayırdı. Ölkə xaos və anarxiya bataqlığında boğulur, Ermənistan vəziyyətdən istifadə edərək ərazilərimizi işğal edirdi. Ağdərə-Kəlbəcər yolunun bağlanması ciddi təhlükə yaratmışdı. Prezident Ə.Elçibəy dinc əhalinin çıxarılması üçün Süleyman Dəmirəldən iki mülki vertolyot istəsə də, ala bilməmişdi...

NATO üzvü olan Türkiyə müstəqil addım ata bilmədiyindən Ə.Elçibəyin xahişi yerinə yetirilməmişdi.

Biz buna görə türk qardaşlarımızdan incimirik...

**Ərdoğan Türkiyəsi isə bambaşqadır!**

**Müasir Türkiyə Azərbaycanın, bütün türk dünyasının sevdiyi, qürur duyduğu dövlət olub!**

**Bəli, məhz cənab Rəcəb Tayyib Ərdoğanın sayəsində Türkiyə tam müstəqil siyasət yürüdən güc mərkəzinə çevrilib!**

Lakin bu, asanlıqla başa gəlməyib.

Az vaxtda keçilən yola nəzər salaq.

Hörmətli Ərdoğanın rəhbərlik etdiyi Ədalət və İnkişaf Partiyası 2002-ci ildə seçkilərdə qələbə qazanaraq, o vaxtdan Türkiyədə təkbaşına hakimiyyət qurub.

*O zamandan indiyədək bütün seçkilərin - 6 parlament, 3 prezident, 4 bələdiyyə seçkilərinin birmənalı qalibi olub. Onun təşəbbüsü ilə keçirilən Konstitusiyaya dəyişikliklə bağlı 3 referendum xalq tərəfindən dəstəklənib.*

**Ərdoğanın 19 illik hakimiyyəti dövründə Türkiyə:**

- güclü iqtisadiyyata, yüksələn rifaha, artan beynəlxalq nüfuza sahib olub;
- dövlətin büdcəsi, xalqın yaşayış səviyyəsi dəfələrlə artıb;
- dünyanın ən güclü 20 iqtisadiyyatına malik ölkələr sırasına qoşulub;
- regional gücdən tədricən qlobal proseslərin təsiredici ölkəsinə çevrilib;
- İraq, Liviya, Suriya, Yaxın Şərq, Aralıq dənizi hövzəsi, son olaraq da Qafqazdakı proseslərdə əsas faktorlardan biri kimi yeni dünya düzəninin formalaşmasında mühüm rol oynayıb;
- dünyanın ən güclü turizm ölkələrindən biri olub;
- hazırda ordusu, hərbi sənayesi dünyanın ən yaxşıları sırasındadır;
- daxili separatizm meyillərinə, PKK terror təşkilatlarına qarşı uğurlu savaş aparır;
- böyük risq və fədakarlıq sayəsində FETO terrorçu şəbəkəsinin "paralel dövləti"ni ləğv edib!

**İlham Əliyevin 18 illik prezidentliyi də asan və rahat keçməyib!**

*Bir yandan erməni işğalı, müxtəlif təhdid və təhlükələr, digər tərəfdən az vaxtda görüləsi çoxsaylı və böyükmiqyaslı işlər...*

Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin müqəddəs vəsiyyətini yerinə yetirərək İlham Əliyevə böyük etimad göstərdi.

Doğrudur, Ümummilli Liderimiz ölkəni məhvolmadan xilas etmiş, ən doğru və etibarlı siyasi inkişaf kursu müəyyən edərək əbədiyyətə qovuşmuşdu.

Lakin...

**İlham Əliyev yarımçıq qalan işləri uğurla başa çatdırmalı idi!**

Elə ilk sınaq prezident seçkilərinin gecəsi və sonrakı günü - 15-16 oktyabr 2003-cü ildə baş verdi.

Azərbaycanın müstəqilliyini, bir dövlət kimi mövcudluğunu istəməyən qüvvələr "5-ci kolon"un köməyi ilə yenidən ölkədə sabitliyi pozmaq, özbaşınalıq və qanunsuzluq dövrünü geriyə qaytarmaq üçün əməli işə keçdilər!

**İlk gündən İlham Əliyev qətiyyətli, cəsarətli, müdrik və uzaqgörən dövlət başçısı olduğunu sübuta yetirdi, daxili və xarici düşmənləri yerlərində oturtdu!**

*Otuz ildən yuxarı bir dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmizin "Axilles dabanı" sayılıb, xarici siyasətimizin əsas istiqamətini müəyyən edib.*

*Prezident İlham Əliyev daim bu incə və həssas məqamı diqqət mərkəzində saxlayıb, gerçəkləşdirdiyi bütün layihələrdə, beynəlxalq miqyasda atdığı hər bir addımda başlıca hədəf kimi götürüb!*

Sirr deyil ki, həm beynəlxalq qurum və təşkilatlar, həm də Azərbaycanda maraq güdən bəzi aparıcı dövlətlər bu zəif yerimizdən istifadə yolu ilə müəyyən təzyiq və təsir niyyətinə düşür, bu üsulla öz maraqlarını təmin etməyə çalışırdılar.

Digər bir xoşagəlməz məqam ikili standartların mövcudluğu sayılır.

Əslində buna ədalətin tapdalanması, beynəlxalq hüququn iflic edilərək arxa plana keçirilməsi də demək olar.

**Lakin cənab İlham Əliyev iti zəkası, xarizmatik şəxsiyyəti, siyasi uzaqgörənliyi, cəsarət, qətiyyət və polad iradəsi sayəsində bütün çətinliklərə sinə gərməyi, maneələri uğurla dəf etməyi, qladiator kimi döyüşərək hədəf məqsədinə çatmağı bacardı!**

**İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə:**

- milli maraqlara əsaslanan müstəqil siyasət yeridilib;
- Azərbaycan Avropanın enerji təchizatçılarından birinə çevrilib;



- Böyük İpək yolu ideyası gerçəkləşdirilib;
- Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri işə salınıb;
- okeana çıxışı olmayan Azərbaycan qlobal logistika mərkəzinə çevrilib;
- Azərbaycan Cənubi Qafqazın lider dövləti, söz sahibi statusuna yiyələnib;
- nüfuzlu beynəlxalq təşkilatlara sədrlik edən Azərbaycan dostlarının, haqq işinin müdafiəçilərinin sayını əhəmiyyətli dərəcədə artırıb;
- ən nəhayət, 44 günlük müharibə dövründə faşist xislətli düşmənin başını əzərək iki əsrlik münaqişəyə, 27 illik işğala son qoymaqla beş yüz il ərzində ilk dəfə olaraq itirilmiş torpaqları geri qaytarıb!

❖ ❖ ❖

### Bir canda iki ürək...

Bir-birinə yüksək məhəbbət və hörmət hissi ilə "Əziz qardaşım" deyə müraciət edən iki dövlət başçısı daim öz dövlətlərinin maraqlarını uca tutan siyasət yürüdür, müstəqil düşünüb, müstəqil qərarlar qəbul edir, heç bir təhdid və təzyiq cəhdi qarşısında geri durmurlar!

Kimsə biri olmayan yerdə digərinin yanında onun arxasınca danışmağa cəsarət etməz.

Belə hal baş verərsə, dərhal cavabını alar, ağzından vurular!

Azərbaycan daim Türkiyənin maraqlarını nəzərə alır, karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasında, transmilli layihələrinin gerçəkləşdirilməsində üstünlüyü qardaş dövlətə verir.

Türkiyə isə ordu quruculuğunda ən müasir silahlarla təchizatda, hərbi kadrların hazırlanmasında Azərbaycana yaxından kömək göstərdi, Dağlıq Qarabağ münaqişəsinin həllində daima və bütün məsələlərdə yanımızda oldu, bunu bütün səviyyələrdə ucadan bəyan etdi, xəbərdarlıq mesajları ünvanladı.

**Çox xoş və qürurdoğurucu haldır ki, 10 dekabr 2020-ci ildə Bakıda keçirilən möhtəşəm Zəfər paradında bir millət, iki dövlətin dost və qardaş rəhbəri təntənəli paradı tribunada yanaşı dayanaraq qəbul edirdilər!**

❖ ❖ ❖

İki dost, görkəmli dövlət xadimi bir-birləri haqqında da dəyərli fikirlər söyləmişlər.

İki nümunəni təqdim edirik:

**Rəcəb Tayyib Ərdoğan:**

- "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli Lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək".
- "Qardaşım İlham Əliyev Azərbaycan xalqının yaşadığı bu qədər faciəyə baxmayaraq, dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoymaqdadır. Cənab Prezidentin bu xoşniyyətli cəhdlərini biz də dəstəkləyir, həmsöhbətləri tərəfindən dəyərləndirilməsini arzu edirik. Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır".

**İlham Əliyev:**

- "Dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ölkələr tapılmaz. Bu, həqiqətdir. Bu gün dünya xəritəsinə baxsaq görərik ki, bizim qədər bir-birinə bağlı olan, bir-birinin hər zaman yanında olan ikinci ölkələr yoxdur. Bizi birləşdirən həm ortaq tarix, din, mədəniyyət, dil, ədəbiyyat, eyni zamanda, bizim siyasətimizdir. Türkiyə və Azərbaycan dünya miqyasında müstəqil siyasət yürüdən ölkələrdir. Türkiyənin gücü bizim gücümüzü artırır. Bu gün əziz Qardaşımın liderliyi sayəsində Türkiyə dünya miqyasında güc mərkəzinə çevrilib. Dünyanın bir çox ölkələrində Türkiyə haqqı, ədaləti qoruyur, müdafiə edir. Əzilmiş xalqların maraqlarını müdafiə edir və ədaləti, beynəlxalq hüququ bərpa edir. Bu gün Ərdoğan Türkiyəsi dünya üçün bir örnəkdir, müstəqillik, mərdlik, cəsarət örnəyidir və inkişaf örnəyidir".
- "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk".

❖ ❖ ❖

Müdrik atalar sözü var: dostunu mənə göstər, kim olduğunu sənə deyim!

Atanı, qardaşını, əmini, dayını... yox, məhz dostunu!

Maraqlıdır, deyilmi!

*Yəqin ki, dostun kimdir deyəndə cənab İlham Əliyev birinci hörmətli Rəcəb Tayyib Ərdoğanı və ya əksinə, Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi göstərir!*

Hər ikisi də doğrudur və haqlıdırlar!

**Həm də bu dostluq və mehribanlıq təkcə bu iki görkəmli şəxsiyyətə deyil, Türkiyə və Azərbaycan xalqına da hava, su kimi gərəkdir!**

**Bu dostluq, qardaşlıq Şuşa səfərində daha da möhkəmlənəcək və müqəddəs örnəyə çevriləcəkdir!**

**Tanrı hər ikisini qorusun, bəd nəzərlərdən uzaq etsin!**

**Bəxtiyar SADIQOV**

# MİLLİ QURTULUŞ

## – SÜRƏTLİ İNKİŞAF, DÜŞÜNÜLMÜŞ SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993–2021

# Milli Qurtuluşdan başlayan Azərbaycan sahibkarlığı

*Hər bir xalqın taleyində bir dönüş nöqtəsi, bir nicat anı, bir xilas məqamı var. 15 İyun da xalqımızın tarixində belə bir zirvədir və bu xilas günü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.*



1993-cü ilin iyun ayını - o ağrılı-acılı, təlatümlü günləri yaşadığımız zamanları orta və yaşlı nəsil yaxşı xatırlayır. Xalqımızın uzun illər arzusunda olduğu və yenicə bərpa etdiyi dövlət müstəqilliyi təhlükə ilə üz-üzə qalmışdı, Azərbaycan faktiki olaraq bir neçə yerə parçalanmışdı.

Müstəqilliyimizin ilk illərində ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, cəbhədə torpaqlarımızın itirildiyi, Azərbaycanın dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqımız Heydər Əliyevə müraciət etdi.

Hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyi və siyasi çəkişmələri yalnız zəngin dövlətçilik təcrübəsi olan bu böyük insan aradan qaldıra bilərdi. Bunun üçün Naxçıvana - Ulu Öndərin ünvanına yüzlərlə məktub, teleqram göndərilirdi. Bu müraciətlər təkcə maddi-mənəvi iztirablara məruz qalan bir xalqın sadəcə vəziyyətdən çıxış yolu deyildi. Bu həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün qəbul edilən tarixi bir ümumxalq qərarı idi.

1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələn Ulu Öndər Heydər Əliyev xilaskarlıq missiyasını cəsarətlə, qətiyyətlə yerinə yetirdi. Bir neçə gün sonra iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və beləliklə, 15 İyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Heydər Əliyev 1993-cü il iyunun 24-də Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Azərbaycan xalqı onu ağır bəlalardan qurtaran xilaskarını - Heydər Əliyevi 1993-cü il oktyabrın 3-də görünməmiş siyasi fəallıq və ruh yüksəkliyi ilə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçdi.

Xalqın istək və tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi.

Bu qayıdışla ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun şəkildə müstəqil dövlət quruculuğu prosesi başlandı.

Dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanları olan Heydər Əliyev Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkədə qarşıdurmadan sülhə, böhrandan tərəqqiyə, ətalətdən dinamik fəaliyyətə istiqamətlənən həyat tərzi başlandı.

Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu haqqında bəhs edərkən Ümummilli Liderin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq lazımdır.

Gözlərimiz önündə şərəflə yaşanan ömrünün yaradıcılıq dövründə Azərbaycana rəhbərlik edən Ulu Öndər həm də ölkəmizdə sahibkarlığın möhtəşəm memarı, qurucusu, dinamik inkişafının tənzimləyicisi kimi yaddaşlara əbədi həkk olunub.

Özünün böyük həyat təcrübəsinə, nüfuzuna, iradəsinə, ən mürəkkəb situasiyalarda dəqiq qərarlar çıxarmaq bacarığına görə demokratik cəmiyyətə keçid mexanizmini müəyyənləşdirərək, bu istiqamətdə ardıcıl və sistemli siyasət həyata keçirdi. Əslində, bu danılmaz həqiqət kiminsə istəyib-istəməməsindən və yaxud siyasi mənsubiyyətindən asılı deyil, Azərbaycan reallıqlarında gedən proseslərin məntiqindən irəli gəlir. Azərbaycanın ən yeni tarixinə nəzər salsaq, bir daha aydın olar ki, ölkəmizin hər bir məqamı Ulu Öndərin həyat və fəaliyyəti ilə qırılmaz şəkildə bağlıdır.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb dirçəliş, ardınca isə inkişaf yoluna çıxarmaq idi. Bu, Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın inkişaf modeli idi. Təsadüfi deyildir ki, Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur.

Heydər Əliyevin tarixi nailiyyətlərindən biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir. Xüsusi mülkiyyətə geniş meydan açılması, sənaye və xidmət müəssisələrinin özəlləşdirilməsi, aqrar islahatlar, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsi və digər fundamental transformasiya proseslərini reallaşdırmaq kimi çətin vəzifələrin həlli Heydər Əliyevin adı ilə bağlıdır.

On illik prezidentliyi dövründə Heydər Əliyev respublikada radikal islahatlar apardı və iqtisadiyyatı çökmüş ölkənin xarabalıqlarında dirçəltdiyi və inkişaf etdirdiyi qüdrətli dövləti millətinə bəxş etdi. Onun çoxşaxəli siyasəti ölkəyə tərəqqi və sabitlik gətirən dövlət strategiyasına çevrildi.

Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, Heydər Əliyev ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. O, bütün istehsal sahələrinin bərpası, habelə maliyyə vəziyyətinin yaxşılaşdırılması və xarici sərmayələrin cəlb olunması üzrə antiböhran proqramını işləyib hazırladı.

Dünyanın qabaqcıl neft şirkətləri ilə birlikdə hasil olunması və xarici bazarlara nəqli məqsədilə 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandıqdan az sonra Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalandı ki, bu da Azərbaycana böyük həcmdə xarici sərmayənin qoyuluşuna imkan yaratdı. Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması həm də ölkə daxilində yeni-yeni istehsal sahələrinin artmasına, insanların həyat səviyyəsinin yaxşılaşdırılmasına şərait yaratdı.

Həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradılmış, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmışdır.

Ulu Öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi inkişafın əsasını təşkil edən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin - iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Bu reallığı böyük müdrikliklə nəzərə alan Ümummilli Lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı.

Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar imzalaması özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir.

Hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının sədri Habil Qurbanovdur “Qarabağ söhbətləri”ndə...

### Ata yolunun davamçısı

Habil müəllimlə geriyə, uşaqlıq illərinə qayıtdıq, atalı-analı bəxtəvər çağlarında dolaşdıq, Vətən nisgili çilənmiş xatirələrinə baş vurduq və nəhayət, Qarabağın azadlıq xəbərinin təsvirəgəlməz coşqusunu yaşadıq. Deyir ki, mayın 28-i Respublika Günündə Prezident İlham Əliyevin iştirakı ilə Ağdamda təməlqoyma mərasiminin keçirilməsində iştirak etdiyi, bu tarixi anlara şahidlik etdiyi üçün çox qürurludur...




Habil Qurbanov 1 saylı məktəbdə - Ağdam səfərində Prezident İlham Əliyevin yenidən təməlini qoyduğu məşhur məktəbdə təhsil alıb. Buranı əla qiymətlərlə bitirərək Azərbaycan Pedaqoji İnstitutunin Coğrafiya fakültəsinə qəbul olur və ali təhsilini də fərqlənmə diplomu ilə başa vurur. O, AMEA-da kiçik elmi işçi kimi fəaliyyətə başlayır və pillə-pillə irəliləyərək Moskvada SSRİ DİN-nin Akademiyasının dissertantı kimi, hüquq elmləri namizədi alimlik dərəcəsi alır. 1997-ci ildə Moskvada Rusiya Federasiyası Baş Prokurorluğunun institutunda doktorluq dissertasiyasını müdafiə edib, hüquq elmləri doktoru olur.

1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası ona hüquq elmləri doktoru, 2010-cu ildə isə professor elmi adı diplomlarını verir.

Habil Qurbanovun fəaliyyət sahələri də çoxşaxəli olub. O, 1976-1980-ci illərdə Bakı şəhəri Nəsimi Rayon Komsomol Komitəsində, sonrakı dövrdə isə SSRİ Daxili İşlər Nazirliyinin Bakı orta xüsusi milis məktəbində tədris hissəsinin müfəttişi vəzifəsində çalışır. 1984-1986-cı illərdə Bakı Milis Məktəbində qiyabi bölmənin rəisi, 1986-1990-cı illərdə məktəbin rəis müavini vəzifələrində işləyir.



O, 1990-cı ildə ata yolunu davam etdirməyi seçir. Prokurorluq orqanlarına işə qəbul edilir, Bakı Şəhər Prokurorluğunun Ümumi nəzarət şöbəsində prokuror, böyük prokuror vəzifələrində çalışır. 1997-2001-ci illərdə Respublika Prokurorluğunda cəza yerlərində qanunların icrasına nəzarət idarəsinin rəisi işləyir. Hazırda fəaliyyətini elm sahəsində davam etdirir...

### Sözünün ağası

*Habil müəllimin Ulu babası Molla Qurban Mədət oğlu Yelizavetpol quberniyasının Şuşa qəzasının Seyidli kəndindən olub. Seyidli Ağdamın ən qədim və böyük kəndlərindəndir və sonralar şəhərin mərkəzi həm də Seyidlinin hesabına genişlənmişdi. Bu kənddə onun evi, geniş həyəti, Ağdam məscidinin yanından Ağcabədi yolundakı Manaf körpüsünədək bağı varmış.*

*Atası Surxay da 1912-ci ildə Seyidlidə Molla Qurbanın nəvəsi Kərbəlayı Əbdüləlinin ailəsində dünyaya göz açmışdı. Ağdamın adlı-sanlı şəxslərindən olan Surxay Qurbanov Ağdamın müxtəlif məktəblərində müəllim, tədris-hissə müdiri, direktor vəzifələrində işləyib. Müharibədən sonra hüquq mühafizə orqanlarında mühüm vəzifələrdə çalışmış, Oğuz*




*rayonunun prokuroru, Gəncə Vilayət Prokurorluğunun İstintaq İdarəsinin rəisi olmuş, sonralar isə əmək fəaliyyətini pedaqoji sahədə davam etdirmiş, Ağdam şəhərindəki ən böyük tədris ocaqlarından birinə 3 saylı məktəbə uzun müddət rəhbərlik etmişdi. Surxay Qurbanov həm də Böyük Vətən müharibəsinin qəhrəmanlarından olub.*

*Döyüş xidmətlərinə görə “Qırmızı ulduz”, “Birinci dərəcəli Vətən Müharibəsi” ordenləri, “İgidliyə görə” medalı ilə təltif olunub.*

*Həmsöhbətimiz Habil Qurbanovu xəyalları, düşüncəsi Ağdamlı günlərə aparır...*

- 1930-cu illərin əvvəllərində atam Ağdam Pedaqoji texnikumunun tələbəsi olarkən burada Kəlbəcərin Qaraxançallı kəndindən olan İsmayıl Hacıyevlə qarşı-



laşır və onlar möhkəm dost olurlar. Hətta II Dünya müharibəsinə də bir vaxtda gedirlər. Sonradan isə İsmayıl Hacıyevin ölüm xəbəri gəlir. Demə o zaman İsmayılı əsir götürüb aparırlar Fransaya. O isə əsirlikdən qaçaraq Fransa Müqavimət Hərəkatına qoşulur. O zaman qayda var idi ki, kim əsir düşmüşdüsə, onları vətən xaini hesab edirdilər.

Müharibə qurtaranda İsmayıl Hacıyev qayıdır və onu da vətən xaini kimi həbs edib güllələnmə verirlər. Amma demə onlara güllələnmə verib göndərirmişlər haradasa şimal tərəfdə olan “ölüm adası”na. Orada ölənə qədər daş karxanalarında işlədirmişlər. Sonradan Fransanın Kommunist Partiyasının baş katibi olan Morres Torres 1952-1953-cü illər ərəfəsində Moskvaya gəlir və Stalinlə görüşəndə ona deyir ki, orada bir igid azərbaycanlı vardı, onunla görüşmək istəyirəm. Bundan sonra Stalin göstəriş verir və İsmayıl Hacıyevi azad edirlər, o vətənə dönür. Həmin vaxt atam Gəncədə prokurorluq orqanlarında yüksək vəzifədə işləyirdi. Dostunun sağ qalmasına ürəkdən sevinən atam İsmayıl Hacıyevlə Gəncədə görüşür. Onların bu dostluğu isə çox keçmədən “yuxarı”ların qulağına çatır. Buna görə də atamı Dövlət Təhlükəsizliyi Komitəsinə çağırırlar. Qarşısına qəti tələb qoyulur:

- Sən nə haqla sovet hökumətinin qatı düşməni ilə ünsiyyətdə olursan? Ya o, ya da vəzifən! İkisindən biri...

Atam heç kimə heç nə demədən ərizə verib Gəncə Vilayət Prokurorluğunun İstintaq şöbəsinin rəisi vəzifəsindən əl çəkib Ağdama qayıdır, müəllimlik peşəsi ilə məşğul olur, 1953-cü ildən ömrünün sonuna kimi 3 nömrəli orta məktəbin direktoru vəzifəsində işləyir...

Anam Seydə (Səidə) xanım 1921-ci ildə Şuşada, maarifpərvər, alim, rəssam, şair və musiqişünas Mir Möhsün Nəvvab Ağamirzadənin nəslində anadan olub. 1987-ci ildə Şuşada, Cıdır düzündə Mir Möhsün Nəvvabın məqbərəsini, eyni zamanda oradakı baba mülkümüzü qardaşım Şamil bərpa etdirmişdi. Anamgil sonradan Şuşadan Ağdama gəlmişdilər və orada atamla tanış olub ailə qurmuşdular. Anam da ibtidai sinif müəllimi idi. Təəssüf ki, hər iki valideynim bizi tez tərk etdi. Anam uzun sürən xəstəlik səbəbi ilə 50 yaşında, atam isə 65 yaşında vəfat etdi...

Hər ikisinin məzarı baba və nənəmin qəbirləri ilə birlikdə Ağdamda “Qarağacı” qəbiristanlığında yan-yana idi...

### Yenə o çağ olaydı...

- Ailədə 5 qardaş, 2 bacı idik. Babam İmanqulunun yurdunda qalırdıq. Sonradan isə atam həmin həyətdə ev tikdirmişdi, həyətin aşağısında isə böyük qardaşımın evi idi. Gözəl meyvə bağımız vardı. O meyvə yox idi ki, orada olmasın. 3 cür nar: şirin, mələz, gülöyşə, 3 cür heyva: şirin, kəpək, turş... Cürbəcür alma, armud sortları, gilas, gilənar, xurma, limon, tut, əncir ağacları...

O ağaclardakı meyvələrin hər birinin dadı damağımdadır və indiyə qədər də hələ o cür ətirdə, dadda meyvə yeməmişəm...



Hələ lap kiçik idim, amma yadımdadır, İmanqulu babamın bir arabası vardı. O, bazardan taxıl alıb arabaya yığırdı və məni də özü ilə birlikdə Seyidli kəndindəki su dəyirmanına aparırdı. Taxılı gecəyə kimi üyütdürürdü. Sonra üyüdülmüş unu kisələrə yığırdı və biz evə qayıdırdıq. Qərənfil nənəmin həyətimizdəki təndirdə bişirdiyi çörəklərin ətri bütün məhləni başına götürərdi...

Həmişə payız-qış aylarında ağacdan çoxlu heyva dərib gətirərdim, nənəm təndirə çörək salanda onları da bişirərdi, ləzzətlə yeyərdik...

### Qədim məktəbin yeni təməli

*Bu il mayın 28-də Respublika Günündə Prezident İlham Əliyev Ağdamda erməni vandalları tərəfindən dağıdılmış qədim 1 saylı orta məktəbin də təməlini qoydu...*

*Dövlət başçımız bu tarixi məktəbin həm keçmiş, həm də gələcək şagirdlərinin qəlbini fərəh və sevincə bürüdü...*

*Elə Habil Qurbanov da Ağdam 1 saylı məktəbin müvəffəqiyyət qazanan məzunlarındandır...*

- 1 saylı məktəbdə birinci sinif müəlliməm Barat müəllimə idi, daha sonra onu Səlimə müəllimə əvəzləmişdi. Direktorumuz isə pedaqoji elmlər namizədi Süleyman Zeynalov idi. Süleyman müəllim çox tələbkar idi. Fizika-riyaziy-



yat müəllimimiz Musa müəllimin hazırlaşdırdığı bütün uşaqlar istisnasız olaraq instituta qəbul olurdular. Tarix müəllimimiz Asif müəllim bizə tarixi elə sevdirmişdi ki, hamımız bu fənni əla oxuyurduq. Ümumiyyətlə, məktəbimiz nümunəvi məktəb idi və burada çox savadlı, bacarıqlı seçmə müəllimlər çalışırdı. Yaxşı idman zalı, həyətində idman meydançası var idi. İdman sahələri üzrə dərnəklər fəaliyyət göstərirdi və biz də demək olar ki, idmanın bütün növləri ilə orada məşğul olurduq.

1 nömrəli məktəbin həyətində yaxşı meyvə ağacları var idi, tərəvəz əkib becərirdik. İməcilik yolu ilə şagirdlər onlara qulluq edirdi...

### Ağdamın çətin illəri

- Qarabağda 1988-ci il hadisələri başlayanda milis məktəbində işləyirdim. O zaman kursantlarımızı bölgələrə aparırdıq. Ağdərədə, Gədəbəydə, Xankəndidə olmuşduq. Həmin vaxtlar intensiv döyüş getməsə də, atışmalar olurdu, gərginlik var idi.

Əsgərlər vuruşurdular, bizim də öz mövqelərimiz vardı, kursantlar postlar qurmuşdular, onlara nəzarət edirdik. Müharibə ərəfəsində hər həftə Ağdamda idik. Yardım, patron, geyim, yorğan-döşək yığıb aparırdıq. Çörək qıtlığı zamanı idi, Kürdəmirdən çörək alıb maşınlara yığıb aparırdıq, başqa ehtiyac olan şeylər aparırdıq... Hərbçilərlə, rayon rəhbərliyi ilə görüşürdük. Allah rəhmət etsin, Allahverdi Bağırovla daim əlaqə saxlayırdıq. Onu uşaqlıqdan tanıyırdım, bir məktəbdə oxuyurduq, həm də qardaşımla sinif yoldaşı idilər...

### Əzəli rəqiblərin “İmarət”də son qarşılaşması...

*“Qarabağ Futbol Veteranları” Klubunun təsisçisi və prezidenti olan Habil Qurbanov unudulmaz futbol xatirələrini də bölüşür:*

- 1991-ci ilin sentyabrında “Neftçi”nin əfsanəvi veteranları ilə - Anatoli Banişevski, Ələkbər Məmmədov, Yaşar Babayev, Vladimir Buruxti, Adil Babayev, Valeri Hacıyev, Səməd Qurbanov, İsgəndər Cavadov, Füzuli Cavadov, Maşallah Əhmədov, Səmədağa Şıxlarov və adlarını sadalamadığım daha bir çox görkəmli futbolçularla birlikdə avtobusla Ağdama getdik. “İmarət” stadionunda “Ağdam” və “Neftçi” veteranları yoldaşlıq oyunu keçirdilər. O zaman Allahverdi Bağırov da, qardaşı Ağdam könüllü batalyonunun komandiri Eldar Bağırov da oynayırdı. Stadion adamla dolub daşırdı. Mən bir hissə “Ağdam”, bir hissə isə “Neftçi” veteranları ilə oynadım. Hesab isə 1:1 oldu. “Ağdam”ın qolunu Allahverdi Bağırov vurmuşdu...



Oyundan sonra Allahverdi bizi Şahbulaq qalasına apardı, oradakı “Koroğlu” restoranında qonaqlıq verdi...

Təəssüf ki, həmin oyundan cəmi iki ay sonra Eldar Bağırov Bakıda sui-qəsdə məruz qaldı. Daha sonra Allahverdi də şəhid oldu...

### Ümidimiz onadır ki, gedib doğmalarımızın məzarını taparaq bərpa edək...

- Bu 27 il ərzində Ağdama həsrət qaldıq, valideynlərimizin məzarlarını ziyarət edə bilmədik. Eşidəndə ki, ermənilər “Qarağacı”nı tamamilə şumlayıblar, bu bizə çox ürək ağrısı verdi. Amma kiçik qardaşım xüsusi kompüter proqramı vasitəsilə hər zaman oralara baxırdı və de-



yirdi ki, məzarlığın bir hissəsini tamamilə şumlayıblar, ata-anamın məzarı olan hissə isə dağıdılıb. O, təxminən qəbirlərin hansı istiqamətdə olduğunu bilir...

İndi ümidimiz onadır ki, həmin yerlər minadan təmizlənəndən sonra gedib doğmalarımızın məzarını taparaq bərpa edək...

Bizə yaşadığımız ağrı-acını, əzabları unutduran Ali Baş Komandan cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Mayın 28-də Ağdama səfər edəndə, yurdumuzdakı erməni vandallığının nəticəsini görəndə ürəyimiz ağrıdı. Amma Prezident Ağdamın işıqlı gələcəyinin layihəsini bizə təqdim edəndə ürəyimiz dağa döndü, 28 illik kədəri unutduq. Prezidentin çıxışı hər birimizə böyük əhvali-ruhiyyə verdi. Demək olar ki, layihələri bir-bir bizimlə müzakirə etdi. Həmin zaman Prezident layihəçilərə tapşırıq verdi ki, Ağdam üçün elə ağaclar, güllər seçin ki, burada bitsin. Onda söylədim ki, cənab Prezident, Ağdamda nə əksən bitər, subtropik bitkilərin hamısı Ağdamda bitir. Torpaq çox münbitdir...

Ağdamın Baş Planındakı bütün layihələr təqdim edildikcə görürdük ki, dövlət başçısı onların hər biri ilə bağlı məlumatlıdır. Ona görə də deyirəm ki, cənab Prezident təkcə müharibənin deyil, həm də Qarabağdakı quruculuq işlərinin baş memarıdır...

Ağdam 100 min əhalilik möhtəşəm bir şəhər olacaq. İşğaldan əvvəl şəhərin 600-700 hektar ərazisi var idisə, indi ərazisinin 1700 hektar olması planlaşdırılır. Parklar, meşələr salınacaq, kanal çəkiləcək... Evlərin hər biri gözəl layihələr əsasında tikiləcək. Köhnə abidələrin hamısı bərpa olunacaq, Fərhadın heykəli, Cümə Məscidi, Çörək Muzeyi...

Ağdamın təcavüz və qələbə tarixi iki muzeydə yaşadılacaq, “İşğal” və “Zəfər” muzeyləri yaradılacaq...

İlham Əliyevin baş memarı olduğu bu möhtəşəm layihədə Ağdamın keçmişi ilə gələcəyi, qədimliyi ilə müasirliyi çuğlaşacaq.

Müzəffər Ali Baş Komandanın qətiyyəti, yürütdüyü müdrik siyasət sayəsində biz bu gün xəyallarımızda, arzularımızda yaşatdığımız Ağdama qovuşuruq...



### Ağdamı, azad Qarabağı qələbə sədaları bürüyür...

*Budur, Ağdamda yenidən coşqulu futbol günlərinin həyəcanı yaşanır. Hələ qarşılaşmanın başlamasına bir saatdan çox qalsa da, möhtəşəm, dünya standartlarına uyğun inşa edilmiş yeni stadion camaatla dolub-daşır...*

*O da azarkeşlər arasında əzəli rəqiblər “Qarabağ”la “Neftçi”nin oyununa tamaşa edir... Nəhayət, hakim başlanğıc fitini çalır, futbolçular topa tərəf şığıyır, sürəkli alqış, coşqulu hay-küydən qulaq tutulur...*

*Birdən stadiona lal sükut çökür...*

*Və gənc futbolçunun qapıçı ilə təkbətək çıxaraq topu məharətlə qapı toruna göndərməsi ilə Ağdamı, azad Qarabağı qələbə sədaları bürüyür...*

*Bütün bu anları həyəcanla izləyən Habil Qurbanovun da gözlərindən qeyri-ixtiyari sevinc, qürur, fəxarət gözyaşları süzülməyə başlayır...*

*Bəli, düz bir qərinəlik həsrətdən sonra Ağdam yenidən bayram əhvali-ruhiyyəli günlərinə, toy-büsatlı çağlarına qovuşur...*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Şəhidlik zirvəsini fəth etmək hamıya nəsib olmur



Qarabağ zəfərini canı və qanı hesabına gerçəkləşdirən oğullarımızdan biri də Gədəbəydə dünyaya göz açmış Hüseyn Əsgərovdur. Yaşasaydı, 26 yaşı tamam olacaqdı Hüseynin.



O, Gədəbəyin səfalı guşələrindən olan Qoşabulaq kəndində dünyaya gəlmişdi. Gözünü açandan ata-anasından, oxuduğu 2 nömrəli kənd orta məktəbinin müəllimlərindən torpaqlarımızın 30 faizinin ermənilər tərəfindən işğal olunmasını eşitmiş və yəqin bu səbəbdən hərbçi olmağı qarşısına məqsəd qoymuşdu. Belə də oldu. Orta məktəbi bitirən kimi həqiqi hərbi xidmətə yollandı. Xidmətini başa vurduqdan sonra hərbidə qalmağı qərara aldı. Müdafiə Nazirliyinə ərizə ilə müraciət edərək arzusunu bildirdi və 2017-ci ilin mart ayından hərbi xidmətini davam etdirməyə başladı. Xidmət etdiyi dövrdə özünü nümunəvi hərbçi kimi göstərən Hüseyn dəfələrlə hərbi hissənin rəhbərliyi tərəfindən təşəkkürnamələr aldı.

Lakin Hüseyn torpaqlarımızın işğalı ilə barışa bilmirdi. Qisas anımı gözləyirdi. Çox çəkmədi ki, həmin məqam yetişdi. 2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsi ilə Hüseynin arzusu reallaşmağa başladı. Ordumuz sürətlə irəliləyərək düşməni torpaqlarımızdan qovurdu. Hüseyn isə Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edirdi. Lakin bu döyüşlərin birində düşmən gülləsi həyatına son qoydu. Nəşi doğulub boya-başa çatdığı Gədəbəyə gətirilərək Qoşabulaq kənd qəbiristanlığında torpağa tapşırıldı. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olundu.

Qeyd edək ki, hər iki Qarabağ müharibəsində Gədəbəy 315 şəhid vermişdir. Onlardan 4 nəfəri Milli Qəhrəmandır. İkinci Qarabağ müharibəsində 39 şəhid verən gədəbəylilər Hüseyn Əsgərovun da xatirəsinə ehtiram göstərirlər. Elə bu günlər Hüseyn Əsgərovun doğum günündə də vaxtilə təhsil aldığı məktəbin müəllim və şagirdləri, kənd sakinləri, eləcə də rayon rəhbərləri şəhidin məzarı başına toplaşmışdılar. Cəmi 26 il ömür sürmüş Hüseynin necə vətənpərvər, xalqını sevən bir Azərbaycan oğlu olmasından bəhs edən fikirlər səsləndirilmişdir. Şəhidin atası Ramiz Əsgərov oğluna göstərilən diqqət və qayğıkeşliyə görə ailə üzvləri adından minnətdarlıq etmişdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Yevlaxın Salahlı kəndində şəhidlərin xatirəsinə abidə ucaldılıb

Yevlax rayonunun Salahlı kəndində Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş kənd sakinlərinin xatirəsinə Şəhidlər abidəsi inşa edilmişdir.




Açılış mərasimində rayon rəhbərliyi, hüquq mühafizə orqanlarının nümayəndələri, şəhid ailələri və qazilər, müharibə veteranları, kənd sakinləri iştirak etmişlər.

Tədbirdə çıxış edənlər Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, xalqla ordunun birliyindən danışmış, Zəfər tarixini yazan vətən oğullarının Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqlarını bildirmişlər.

Onu da qeyd edək ki, rayonun digər kəndlərində də belə abidələrin tikintisinin aparılması nəzərdə tutulur.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Naftalanda Bəhruz Quliyevin adına xatirə bulağı tikilib





Bəhruz Quliyev Naftalanda böyüyüb boya-başa çatmışdı. Anası Möhtərəm xanım deyir ki, oğlunun ən böyük arzusu hərbçi olmaq idi və bu arzu onu əsgərlikdən sonra yenidən hərbi qulluğa qaytarmışdır.

2016-cı ildə Aprel döyüşlərində iştirak etmiş Bəhruz Vətən müharibəsində də mərdliklə döyüşmüşdür. O, Suqovuşan ətrafında gedən döyüşlərdə nümunə göstərmişdir. Döyüşlərin birində yaralı dostlarını xilas edərkən minamyot mərmisindən yaralanmasına baxmayaraq, onları atəş altından çıxarmışdır. Ancaq çox qan itirdiyindən gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalmışdır. Ölümündən sonra dövlət başçısının sərəncamı ilə o, "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İndi Bəhruzun adı hər bir naftalanlı üçün əzizdir. Bu günlər adının əbədiləşdirilməsi üçün inşa edilən xatirə bulağının açılışı olmuşdur. Açılışda şəhər rəhbərliyi, şəhidin doğmaları və ictimaiyyət nümayəndələri iştirak etmişlər. Həmin gün şəhidin məzarı da ziyarət olunmuşdur.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Beyləqanda "Tarix yazan şəhidlər" abidəsinin açılışı olub

Beyləqanda şəhidlərimizin xatirəsinə ucaldılan abidənin açılışı olub. Açılış mərasimində şəhid ailələri, hərbçilər, Vətən müharibəsinin qaziləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Tarix yazan şəhidlər" abidəsi Vətən uğrunda canını fəda edən şəhidlərimizin xatirəsinə Beyləqan rayonu Milabad kəndində inşa olunub.

Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər 44 günlük Zəfər yürüşündə qəhrəman oğullarımızın igidliyindən söhbət açıblar. Bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qüdrətli Azərbaycan Ordusunun şücaəti nəticəsində ərazi bütövlüyümüz təmin edildi, həmçinin şəhidlərimizin qisası alındı.

Vurğulanıb ki, "Tarix yazan şəhidlər" abidəsi Milabad kəndindən olan Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsinə ucaldılıb.

Tədbirdə iştirak edən şəhid atası Tahir Zamanov deyib ki, belə bir abidənin açılışı şəhid ailələri üçün təsəllidir: "Biz çox sevinirik ki, belə övladların valideynləriyik. Çünki onlar 30 illik həsrətə son qoyan qəhrəmanlardır. Nəinki biz şəhid ailələri, hər bir kəs onlarla fəxr edir. Çünki bu Qələbə Ali Baş Komandanın rəhbərliyi ilə xalq-ordu birliyinin təcəssümüdür".

Füzulidən Şuşaya qədər döyüş yolu keçən qazi Tural Cəfərov şəhidlərin ziyarətinə əli əsalı olsa da, başıuca, qalib Ordunun qalib hərbçisi kimi gəldiyini söyləyib. 44 günlük Zəfər yürüşünü qürurla xatırlayan qazi söyləyib ki, bu Qələbə Azərbaycanın tarixinə şəhidlərimizin qanı ilə yazıldı. Beş ildir ki, Vətənin keşiyində dayanan qazi deyib: "Hər bir əsgər və zabitin bir amalı var idi - Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etmək. Həmin gün bizə qismət oldu. Bu gün şəhidlərimizin ruhu şad, torpaqlarımız isə azaddır. Bu Qələbə Azərbaycan tarixinə ən şanlı səhifə kimi yazıldı".

Sonra abidə ziyarət edilib, önünə gül çələngi və tər çiçəklər düzülüb. Məktəblilərin ifasında vətənpərvərliyə, qəhrəmanlığa həsr edilən şeirlər səsləndirilib.

Qeyd edək ki, Beyləqan rayonundan Birinci Qarabağ müharibəsində 211 nəfər, Vətən müharibəsində isə 136 nəfər qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Beyləqan rayonu Milabad kəndindən isə Birinci Qarabağ döyüşlərində 5, Vətən müharibəsində isə 7 nəfər şəhadətə ucalıb.

# Həsrət nəğməsi

## Üç aya qurulan toy, üç il çəkən evlilik, yaşanmayan həyat...

**◆ Bizim hekayəmiz**

Samid İmanov 14 oktyabr 1981-ci ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində Gülağa və Xuraman İmanovların ailəsində anadan olmuşdur. Ailədə iki qız övladından sonra dünyaya gəldiyindən çox əzizlənərdi. Özündən böyük iki bacısı və kiçik qardaşı vardı. Orta məktəbi həmin kənddə bitirmişdi. Arzusunun ardınca düşüb təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirmişdi. 2003-cü ildə həmin hərbi məktəbi fərqlənmə diplomu ilə başa vurduğu üçün Samid İmanov Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən mükafata layiq görülmüşdü. Azərbaycan Silahlı Qüvvələrinin və Xüsusi Təyinatlı Qüvvələrin mayoru idi. Aprel döyüşlərində şəhidliyindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşür.

"Bizim hekayəmiz" layihəsində həmsöhbətimiz Samid İmanovun xanımı Badam İmanovadır.



### Onu çox gözlədim

- Bizim hekayəmiz çox uzun sürmədi, amma keşməkeşli oldu. Cəmi üç il idi ki, ailə qurmuşduq. O üç ilin nə qədərini bir yerdə ola bilmişik, çətin deyə bilərəm. Hərbçi ailəsinin həyatı bir yerdə olmaqdan çox, bir yerdə olmağı gözləməkdən keçir.

Biz Samidlə dayıqızı bibioğlu idik, amma düzü görməmişdik bir-birimizi, yalnız adımızı eşitmişdik. Samidin anası bibim olsa da gedişgəlişimiz yox idi. Həm də o həmişə təhsil arxasınca gedib, sonra dağda-daşda, təlimlərdə, ezamiyyətlərdə olub. Mən də universitetdə oxuyurdum. Tətil vaxtları ata yurdumuz Neftçalaya gedirdim. Bir dəfə Samidlə tətilimiz eyni vaxta düşdü, kənddə rastlaşdıq. Həmişə eşidirdim ki, Samidə qız axtarırlar, amma heç kimi bəyəndirə bilmirlər. Heç kim onun meyarlarına uyğun gəlmirdi. Lakin onunla ilk dəfə rastlaşandan söhbətimiz tutdu.

Eşidəndə ki, məndən xoşu gəlib, ciddiyə almadım. Üstündən iki ay keçdi, Samid növbəti dəfə evə gələndə soruşub ki, Badamla danışan oldumu? Bundan sonra gəlib mənə dedilər ki, Samid səni soruşur. Məsələnin ciddiliyini anladıqdan sonra heç tərəddüd etmədən razılıq verdim. Bilmirəm, qohum olduğumuza görə ona inandım, yoxsa özü elə ilk dəfədən o etimadı qazandı, amma hər halda güvəndə hiss etdim özümü.

İlk təsadüfi görüşdən sonra cəmi bir dəfə görüşdük. Bakıda məni dəvət etdi restorana. Oturduq söhbət etdik. Mən ona ailə qurmaq haqqında xəyallarımdan danışdım. Heç bir tələbi, şərti, iradı olmadı, daha çox mən danışdım, o dinlədi. Sakit, mehriban bir ailə arzusunda idim. Arzularımız üst-üstə düşmüşdü. Maraqlı bir məqam oldu. Restorandan çıxanda əllərimi yumaq üçün uzaqlaşdım, sonra çıxıb restoranın qarşısında Samidi gözlədim. Xeyli keçdi, axırda bayaqdan üzbəüz səkidə durduğum oğlan irəli keçib mənə dedi ki, getməyək? Başımı qaldırıb baxdım və səsindən tanıdım ki, Samiddir. İki görüşün ikisində də üzünə baxmadan, başıaşağı söhbət etdiyimə görə siması yadımda qalmamışdı.











### Dedi ki, ola bilər toyumuza gələ bilməyim

- Bakı Dövlət Universitetində Fizika fakültəsində dördüncü kursda təhsil alırdım. Fevralda elçi gəldi, martda nişan, iyunda toyumuz oldu. Samidin 30 yaşı vardı, şəhərdə tək qalırdı. Ona görə də toyu tezləşdirdik. 2013-cü il idi, hərbi parada hazırlaşırdılar, görüşə bilmirdik. Çox yorğun olurdu, günün altında təlim keçirdilər, qapqara qaralmışdı. Mənə deyirdi, hər vəziyyətə hazır ol, ola bilər toyumuza gələ bilməyim. Hər şey o qədər sürətlə baş verirdi ki. Mənim cəmi 21 yaşım vardı. Onun işi şəhərdə olduğu üçün Bakıda yaşayırdı. Ezamiyyətə, təlimlərə gedirdi, amma şəhərdə yaşayırdıq. Çox danışmazdı, evə gələndə yeməyini-içməyini verərdim, nə var, nə yoxdan sonra yatıb dincələrdi. Mən də ona artıq sual verməzdim, çünki bilirdim ki, sevmirdi işi haqqında danışmağı. Elə sual verilməsini də istəmirdi. Problemlərlə yükləməzdim onu. Bir sözünü iki etməzdim. Həmişə olanı da içimdə çəkərdim. İndiki yaşımla və ağlımla düşünürəm ki, bəlkə, içimdə çəkdiklərimi demək daha yaxşı olardı. Qıymırdım qaşının çatılmasına, onsuz da işi ağır idi, üstəlik də mənim qayğımla yüklənməsinə razı deyildim. Üç ildə ailədəki sakit mühiti, mehribanlığı qorumağa çalışdım. Bir-birimizdən heç narazılığımız olmadı. Çox böyük iddialarımız da yox idi. Samid də mənə dünyaları vəd etmirdi. Bəlli bir yaşı vardı, həyatı dərk edirdi. Xırdalıqlara getməzdi, geyimimə qarışsın, qadağa qoysun, elə xasiyyətləri yox idi. Çox mədəni insan idi. Onun sərt üzünü, səsini ucaltmağını heç görmədim. Ondan heç incimədim. Ümid edirəm ki, Samid də məndən incimədi, çünki elə şərait yaratmadım.

İşinə çox sadiq və peşəkar idi. Həyatında hər şeyi işinə görə planlaşdırırdı. Heç vaxt rütbəsi, vəzifəsi ilə öyünən adam deyildi. İşini çox sevirdi, xidməti ilə öyünərdi. Bəzən heç rütbəsinin qalxdığını bilmirdim, sonradan eşidirdim.

Ailəmizdə hərbçi olmamışdı, mən hərb sənətinin bu qədər ağır olduğunu bilmirdim. Samid demişdi ki, yay aylarında təlimlərdə olacağıq, qalan digər fəsillərdə isə axşamlar evdə olacağam. Biz ailə qurandan sonra onun işində də dəyişikliklər oldu. Samid bəzən nə şənbə, nə bazar günləri evdə tapılırdı. Üç il Samidi gözləyə-gözləyə qaldım. İki saat evdə olanda bizim bayramımız olardı. Bilmirdik hansı işlərimizi görək, bazara gedək, dükana qaçaq, ya da ki, yığılıb qalan işləri həll edək. Samid çox ailəcanlı, diqqətcil idi. Evdə heç bir məişət problemi olmazdı. Çox işi özü görərdi, usta çağırmazdı. Səhər işə gedəndə hansısa krant axıdırdısa onu əlində düzəldib evdən çıxardı. Əlindən hər iş gəlirdi. İndi elə problemlər çıxanda çox çıxılmaz vəziyyətdə qalıram. Evə kimisə çağırmaq istəmirəm, qəbul edə bilmirəm. Deyirdi tək getmə, sənə ağır olar, mən gələrəm birlikdə gedərik bazara. Uşağa nə isə almaq lazım idisə, onun üçün də birlikdə gedərdik. Onun yoxluğu dünyanı başıma fırlatdı. Dünyada tək qaldığımı çiyinlərimdə ağır yük kimi hiss etdim. Çox dərin bir boşluğa yuvarlandım. İnana bilmirdim ki, həyat adama qarşı bu qədər amansız olar.

### Sonuncu qumbaranı ovcuna sıxmışdı

- Son dəfə aprelin 1-də telefonla danışdıq. Sonra əlaqə yarada bilmədim. Sən demə, aprelin 3-də Samid şəhid olub, heç kim mənə deməyib. Samidin də, mənim də ailəm bilib, amma deməyiblər ki, havalanaram. O şəhid olanda Turan yeni doğulmuşdu. Aprelin 8-i mənə bildirdilər. Xəbər gələn vaxt uşaqlar xəstələnmişdilər, hər ikisi qızdırmadan yanırdı. Həm uşaqlar ağlayır, həm də göz yaşları tökürdüm, özümü ələ ala bilmirəm. Həmin an həyatın sonu idi mənim üçün. Neftçalada dəfn olundu, ata-anası elə istədi.

Sonra öyrəndim ki, döyüşə-döyüşə irəli gediblər. Yanındakılar həlak olublar. Bir əsgər qalıb, ona yaralı giziri çıxartmğı əmr edib. Sonra Samidin arxasınca qayıdıblar, görüblər ki, əlində qumbara qanın içindədir. Sonuncu qumbaranı əlində saxlayıbmış ki, əsir düşməsin.

### Uşaqlara hələ də həqiqəti anlada bilməmişəm

- Fidanla Turanın adını Samid qoyub. Seçimi hər zaman ona verirdim, mən istəyirdim ki, təki hər iş onun ürəyincə olsun. Qayğıkeş insan idi, amma işi ona imkan vermirdi ki, ailə ilə ürəyincə məşğul olsun. Adam qıymırdı qayğılandırmağa. Turan dünyaya gələndə hədsiz sevinirdi. Mən onların necə ata-bala olduqlarını görməyi çox arzulayırdım, qismət olmadı. Uşaqlara hələ də həqiqəti anlada bilmirəm, qorxuram düzgün anlamasınlar. Bizə göylərdən baxır, deyirəm. Deməşəm ata deyirdi ki, qocalıb təqaüdə çıxanda bir yerdə olacağıq. Deyirlər ana, tez qocal, ata təqaüdə çıxıb gəlsin evə. Son vaxtlar daha çox sual verirlər.

Artıq 5-ci ildir yanımızda deyil. Turanla yaşıddır onun yoxluğu. Onsuz yaşadığım bu beş il yaşamadığım illərin sayıdır.

*Badam xanımla söhbətimiz əsnasında masanın ətrafında oynayan, amma fikirləri analarında qaldığına əmin olduğum Fidanla Turana baxıram. Qızın 7, oğlanın 5 yaşı var. Anası atası ilə Fidanın şəklini göstərib: "Atası ilə ilk görüşləridir, onu ilk dəfə görürdü", - deyə şəkil haqqında məlumat verəndə Fidan kənardan - "Mən onu heç görmədim" dedi. Turan isə susur, heç nə danışmır, ata sözü, ümumiyyətlə, ona tanış deyil.*

*Samid İmanov və onun kimi canını vətən üçün fəda edən qəhrəmanlar haqqında bu gün dərsliklərdə yazılır. Bir gün Fidanla Turan sinifdə tarix dərsliyində atalarının qəhrəmanlığı haqqında oxuyub öyrənəcəklər. Fəxrlə "Bu, mənim atamdır" deyib qürurlanacaqlar. Sinif yoldaşları onlara atalarının qəhrəman olduğu üçün həsəd aparacaqlar. Şəhid övladları atalarına layiq övlad, Azərbaycana layiq vətəndaş olacaqlar.*

***Ramilə QURBANLI, "Azərbaycan"***

# Bakıda Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



İyunun 10-da Bakıda Azərbaycan Respublikası müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Pakistan Ordusunun Hərbi Əməliyyat Baş İdarəsinin rəisi general-mayor Nauman Zakarianın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, söhbət zamanı iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığın əsas istiqamətləri, o cümlədən müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə hərbi qulluqçuların qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə edilib.

Pakistan hərbi nümayəndə heyətinin rəhbəri Azərbaycanın azad olunmuş ərazilərinin minalardan təmizlənməsi prosesində və həmin ərazilərdə həyata keçiriləcək bərpa işlərində ölkəsinin iştirak etməyə hazır olduğunu bildirib.

* * *

Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri (HHQ) komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə səfərdə olan Pakistan Ordusunun Hərbi Əməliyyat Baş İdarəsinin rəisi general-mayor Nauman Zakarianın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan hərbi pilotlarının Pakistanın Hərbi Hava Qüvvələri Akademiyasında təhsilindən məmnunluğunu ifadə edən general-leytenant R.Tahirov ölkələrimizin hərbi aviasiya sahəsində əməkdaşlığının, o cümlədən hərbi təhsil və digər sahələrdə əlaqələrin inkişaf etməsinin ordularımızın döyüş qabiliyyətinin daha da güclənməsinə töhfə verdiyini vurğulayıb.

General-mayor Nauman Zakaria Azərbaycanın hərbi pilotlarının Pakistanın hərbi təhsil müəssisələrində təhsil almaları, ölkəsinin HHQ-nin helikopter heyətlərinin isə Azərbaycanın aviasiya təlim mərkəzlərində hazırlıq keçməsinin iki ölkə arasında hərbi aviasiya sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyinin göstəricisi olduğunu qeyd edib.

Görüşdə tərəflər Azərbaycan və Pakistan HHQ-i arasında əlaqələrin daha da genişləndirilməsi məsələlərini müzakirə ediblər.

# Azərbaycan HDQ-nin nümayəndə heyəti Pakistanda bir sıra görüşlər keçirib

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı kontr-admiral Sübhan Bəkirovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasına səfəri çərçivəsində bir sıra görüşlər keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hərbi nümayəndə heyətimiz Pakistan dövlətinin qurucusu Məhəmməd Əli Cinnahın Kəraçi şəhərindəki mavzoleyini ziyarət edərək məzarı üzərinə əklil qoyub.

Sonra Azərbaycan nümayəndə heyəti Hərbi Dəniz Qüvvələri Donanmasını ziyarət edib.

Kontr-admiral S.Bəkirovun Pakistan HDQ Donanmasının komandiri kontr-admiral Ovais Ahmad Bilqrami ilə görüşü zamanı Azərbaycan və Pakistan HDQ-nin əməkdaşlığı çərçivəsində döyüş gəmiləri arasında təcrübə mübadiləsinin aparılması, hərbi dənizçilərin qarşılıqlı səfərlərin təşkili və digər məsələlər müzakirə olunub.

Nümayəndə heyəti Pakistan HDQ Kəraçi Komandanlığının komandanı kontr-admiral Navid Aşraf ilə də görüşüb. Tərəflər hərbi dəniz infrastrukturunun inkişaf etdirilməsi, dəniz limanlarının mühafizəsinin təşkili və digər məsələləri nəzərdən keçiriblər.

Azərbaycan hərbi nümayəndə heyəti Kəraçi Gəmiqayırma və mühəndislik işləri zavodunu da ziyarət edib. Müəssisə rəhbərliyi ilə keçirilən görüşlərdə zavodun istehsal gücü, müxtəlif növ və təyinatlı gəmilərin taktiki-texniki xüsusiyyətləri, onların döyüş tətbiqi, eləcə də silahlanmasında olan döyüş vasitələri barədə ətraflı brifinq təqdim edilib.

Sonra tərəflər gəmiqayırma və gəmilərin texniki xidməti üzrə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində müzakirələr aparıb.

# Mülki müdafiə işlərinə həsr olunmuş müşavirə

Fövqəladə Hallar Nazirliyinin (FHN) Gəncə Regional Mərkəzində nazirliyin Mülki müdafiə işinin təşkili Baş idarəsinin təşkilatçılığı ilə müşavirə keçirilib.

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Mərkəzin Mülki müdafiə idarəsinin əməkdaşlarının və yerli icra hakimiyyətlərinin mülki müdafiə qərargah rəisi vəzifələrini icra edən şəxsləri iştirak ediblər.

Müşavirədə FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsi tərəfindən regional mərkəzlərə göndərilmiş nümunəvi plan əsasında şəhər və rayonların mülki müdafiə planlarının yenilənməsi və yerlərdə mülki müdafiə işinin təşkili ilə bağlı metodiki köməklik göstərilib, mövzu ətrafında suallar cavablandırılıb.

Bundan əvvəl Mülki müdafiə işinin təşkili Baş idarəsi tərəfindən şəhər və rayonların mülki müdafiə planlarının yenilənməsi ilə bağlı aprelin 22-də FHN-in Cənub Regional Mərkəzində və mayın 20-də Şimal-qərb Regional Mərkəzində yerli icra hakimiyyətlərinin nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilib.

Belə tədbirlərin digər regional mərkəzlərdə də davam etdirilməsi nəzərdə tutulub.

# *Mariya ZAXAROVA:* "Rusiya ümid edir ki, minalanmış ərazilər haqqında informasiya mübadiləsi prosesi sürətləndiriləcək"

Rusiya ümid edir ki, Azərbaycan ilə Ermənistan arasında minalanmış ərazilər haqqında informasiya mübadiləsi prosesi sürətləndiriləcək.

AZƏRTAC xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə xüsusilə iyunun 4-də Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlərin həlak olmasından sonra Ermənistan tərəfinin minalanmış ərazilərinin xəritələrini Azərbaycana təqdim etməkdən imtina etməsi məsələsini şərh edərkən deyib.

"Qeyd etmək istərdim ki, Rusiya tərəfi bu faciəyə ilk reaksiya verən dövlətlərdən biri olub. Azərbaycanın Kəlbəcər rayonunda minaya düşərək həlak olmuş jurnalistlərin doğmalarına və yaxınlarına Rusiyanın Bakıdakı səfirliyi tərəfindən dərin hüznlə başsağlığı verilib. Biz yaralananların hamısının tezliklə sağalmasını arzu edirik", - deyə diplomat bildirib.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmisinin sözlərinə görə, ərazilərin minalardan təmizlənməsi problemi istənilən silahlı münaqişənin ən təhlükəli və çətin həll edilə bilən nəticələrindən biridir: "Rusiya da Dağlıq Qarabağda və ona bitişik rayonlarda münaqişədən sonra minaların təmizlənməsi prosesinə mühüm, əhəmiyyətli töhfə verir. Ötən il noyabrın 23-dən etibarən Rusiyanın Sülhməramlı kontingentinin səyləri ilə 26 minə yaxın partlayıcı maddə aşkar edilib və 2 min hektardan çox ərazi təmizlənib. Faktiki olaraq 2 min bina və 650 kilometrlik yol yoxlanılıb. Analoji tədbirlər Rusiya FHN-in xətti ilə keçirilir. Bu il yanvarın 4-dən etibarən rusiyalı mütəxəssislər Azərbaycan tərəfi ilə razılaşdırılaraq, yarım min hektardan artıq ərazini yoxlayıblar və Ağdam rayonu ərazisində 18 minə yaxın partlayıcı əşyanı zərərsizləşdirib, həmçinin Azərbaycan FHN-in istehkamçılarının hazırlığını həyata keçiriblər".

Diplomatın sözlərinə görə, Bakı və Yerevanla müntəzəm, o cümlədən yüksək səviyyədə təmaslar zamanı Moskva bu məsələnin mayın ilk ongünlüyündə Rusiya xarici işlər nazirinin Yerevana və Bakıya səfərləri zamanı müzakirə edildiyini xatırladaraq, minalanmış ərazilər haqqında məlumat mübadiləsi də daxil olmaqla, minalardan təmizlənmə məsələlərinin qurulmasına çağırır. "Biz ümid edirik ki, bu proses sürətləndiriləcək", - deyə M.Zaxarova əlavə edib.

O qeyd edib ki, Moskva humanitar ölçüyə malik olan bütün məsələlərin Rusiya, Azərbaycan və Ermənistan liderlərinin ötən il noyabrın 10-da və 2021-ci il yanvarın 11-də verilən bəyanatlarına ciddi şəkildə uyğun həll olunması, bunun maksimum operativ və heç bir ilkin şərt irəli sürülmədən həyata keçirilməsi üçün ardıcıl çıxış edir.

# Erməni faşizminin terror siması

*Əvvəli 1-ci səh.*

Erməni terrorizmi beynəlxalq cinayətkar şəbəkənin mühüm tərkib hissəsidir. Terror bu toplumun əsas güvənc yeri, onun tarixdəki dəyişməz mövqeyinin təminatçısıdır. Onlar öz tarixini yalnız terrorla yazır.

## Cənubi Qafqazda terror təşkilatlarını yaradanlar yalnız ermənilərdir

Terroru özlərinin əsas siyasəti sayan ermənilər sırf bu niyyətlərini həyata keçirmək üçün fəaliyyətlərini mütəşəkkilləşdirərək Cənubi Qafqazda ilk terror təşkilatlarını yaradıblar. Hələ 1885-ci ildə yaradılan "Armenakan" partiyasının əsas məqsədi Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində və İstanbulda silahlı toqquşmalar və terror aktları törətmək olub.

İki il sonra - 1887-ci ildə Cenevrədə yaradılan "Hnçak" partiyasının əsas məramı Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanları adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq olub. Partiya hətta terroru özünün fəaliyyətinin əsas istiqaməti olduğunu da bəyan edib. Onun proqramında qarşıya qoyulmuş məqsədə çatmaq üçün terrordan istifadənin zəruruliyi xüsusi qeyd olunub.

1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütyun" partiyasının da əsas məqsədi Azərbaycanın Qarabağ, Naxçıvan, Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq idi.

Dünyanın müxtəlif yerlərində qanlı aksiyalar törədən erməni terrorçular bu təşkilatlarla kifayətlənməyiblər.

ASALA, Erməni Gizli Azadlıq Ordusu, Erməni Azadlıq Cəbhəsi, Gənc Ermənilər İttifaqı, 9 İyun Qrupu, Geqaron, Apostol və digərləri erməni terrorçularının əsas təşkilatları olublar. Bu təşkilatların əksəriyyəti ASALA ilə sıx əlaqə yaradıb. Onların bəziləri hətta ASALA-nın tərkib hissəsi hesab edilir.

Azərbaycan Milli Elmlər Akademiyası Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru Qasım Hacıyev deyir ki, ermənilər terror aktlarından öz çirkin niyyətlərini həyata keçirmək üçün təzyiq forması kimi istifadə edirlər və ən təəsüfləndirici fakt da odur ki, onların törətdiyi terror aktları keçmiş SSRİ və beynəlxalq aləmin heç bir qınağına tuş gəlməyib: "Onların vəhşiliklərinin qarşısını almaq üçün heç bir cəhd göstərilməyib".

Qasım Hacıyev bildirir ki, 20 Yanvar faciəsindən sonra Ermənistan silahlı quldur dəstələrinin Azərbaycanın sərhəd ərazilərinə basqınları daha azğın forma almağa başlayıb. Naxçıvan Muxtar Respublikası erməni terrorunun əsas hədəfi olub. Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirən yeganə dəmiryolu xəttinin Ermənistan SSR-in Mehri rayonu ərazisinə düşən hissəsindən keçən qatarlar, xüsusilə sərnişin qatarları 1989-cu ilin iyul ayının 14-dən başlayaraq erməni təxribatçıları tərəfindən mütəmadi olaraq atəşə tutulub, partladılıb. 1989-cu ilin iyul ayından 1992-ci ilin noyabr ayınadək Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən dəmiryolunda yüzdən çox təxribat hadisəsi baş verib.

## 6 ildə 373 terror

Ümumilikdə 1989-1994-cü illər ərzində Dağlıq Qarabağda erməni terrorçuları tərəfindən nəqliyyatda 29 böyük terror hadisəsi həyata keçirilib, 2 mülki vertolyot və təyyarə vurulub.

1988-1994-cü illər ərzində Dağlıq Qarabağda erməni vandalları tərəfindən 2559 toqquşma, 315 silahlı basqın, 1388 dəfə atəşə tutma halları qeydə alınıb. Bunların nəticəsində 514 nəfər həlak olub, 1318 nəfər yaralanıb. Erməni silahlı dəstələri həmin müddətdə Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı yaşayış məntəqələrində 119 obyekt və 1134 yaşayış evini dağıdıb və yandırıb. 6 sərnişin avtobusu, bir neçə sərnişin qatarı partladılıb, körpülərə hücumlar təşkil edilib.

1988-1993-cü illərdə terror və soyqırımı siyasəti yeridən Ermənistan tərəfindən Azərbaycan ərazilərində ümumilikdə müxtəlif səpkili 373 terror aktı törədilib ki, nəticədə 1200 nəfər həlak olub, 1705 nəfər yaralanıb.

## Terrorçuluq erməni diaspor təşkilatlarının nizamnamələrində də təsbit olunub

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın Qarabağ və Ermənistanla sərhəd bölgələrində soydaşlarımıza qarşı genişmiqyaslı terror aktlarının həyata keçirilməsində ASALA özünün xüsusi fəallığı ilə seçilib. Bütün zamanlarda terrorizmi dəstəkləyən Ermənistan dövlətinin təcavüzkar mövqeyindən istifadə edən ASALA və digər erməni terror təşkilatları bir neçə dəfə Azərbaycanın xarici ölkələrdəki diplomatik missiyalarını, vətəndaşlarını hədəfə götürməklə hədələyiblər. Qasım Hacıyevin sözlərinə görə, Azərbaycana və onun vətəndaşlarına qarşı terror hadisələrinin planlaşdırılması təkcə erməni terror təşkilatlarının siyasəti deyil: "Bu, həm də Ermənistanın dövlət siyasətidir. Ermənilərin terror fəaliyyəti bir sıra diaspor təşkilatlarının nizamnaməsində də öz əksini tapıb. Onlar öz məqsədlərinə çatmaq üçün terrordan geniş istifadəni nizamnamə və fəaliyyət proqramlarına daxil ediblər".

Tarixçi alim əlavə edir ki, Ermənistanın müasir siyasi fəaliyyətində erməni diaspor təşkilatları ilə əlaqəli şəkildə təhdid üsullarından istifadə əsas yer tutur. Bu fəaliyyətdə əsasən terrordan yararlanmaq nəzərdə tutulur. Terror yuvası olan Ermənistana xaricdən dəstək verən fondlar və maliyyə resursları böyük dövlətlərə məxsus olduğu üçün bu barədə məlumatlar məxfi saxlanır. Onu da xatırladaq ki, XX əsrin əvvəllərinə qədər terror fəaliyyəti Qriqoryan kilsəsi tərəfindən təşkil və idarə olunub.

Qasım Hacıyevin sözlərinə görə, Ermənistan hazırda təkcə Azərbaycana qarşı deyil, regionda yerləşən digər dövlətlərə qarşı da müxtəlif şəkildə terror fəaliyyəti həyata keçirir: "Azərbaycana, Gürcüstana və Türkiyəyə əsassız ərazi iddiaları irəli sürən ermənilər zaman-zaman dəhşətli terror hadisələri törədiblər. Bəlkə heç bir ölkədə ermənilərdə olduğu qədər terror təşkilatı və terrorist yoxdur. Dünyada ermənilərin törətdiyi terror hadisələri qədər dözülməz və dəhşətli vəhşiliklər görünməyib".

## Uşaq qatilləri

Erməni terrorunun konkret hədəfi yoxdur. Bu hədəfdə diplomat, qadın və kişi, yaşlı və ya uşaq, ümumiyyətlə, kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlı ola bilər. Hədəfə nail olmaq üçün istifadə edilən vasitələr də müxtəlifdir. Bu vasitələr arasında hətta bomba-oyuncaqlar da olub. Ermənilərin düşünülmüş şəkildə hazırladıqları plana görə, marağından bomba-oyuncağı əlinə götürən uşaq onun partlaması nəticəsində ölməlidir.

Azərbaycana çayla bomba-oyuncaqların axıdılması təcrübəsindən dəfələrlə yararlanmış Ermənistanın 2011-ci ildə törətdiyi faciə daha amansız idi. Rusiyanın Sankt-Peterburq şəhərindən qonaq gələn 13 yaşlı Aygün Şahmalıyeva Tovuzun Əlibəyli kəndindən axan Tovuz çayından "itəbənzər" oyuncaq tapmışdı. O, bu oyuncağın partlaması nəticəsində dünyasını dəyişdi, anası Elnarə isə yaralandı.

2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələri həyətdə oynayan 14 aylıq Zəhra bala nənəsi Sahibə Quliyeva ilə birlikdə qətlə yetirildi.

2020-ci il oktyabrın 24-də Ermənistan silahlı qüvvələrinin Goranboy və Tərtər rayonlarını raket və ağır artilleriyadan atəşə tutması nəticəsində nar yığıb yemək istəyən Orxan İsmayılzadə ömrünün 16-cı ilində terrorun qurbanı oldu.

Ötən il oktyabrın 17-də ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində məktəbli Nigar Əsgərova, Məryəm və Orxan Xəlilli əbədiyyətə qovuşdular.

Bərdənin ağır artilleriyadan atəşə tutulması nəticəsində rayonun Qarayusifli kənd tam orta məktəbinin 2-ci sinif şagirdi Aysu İsgəndərova həyətdə oynayarkən erməni terrorunun qurbanına çevrildi.

Sadalanan faktlar erməni terrorunun yalnız kiçik bir nümunəsidir.

## Erməni terrorunun növbəti qurbanları

Vətən müharibəsinin başa çatmasından sonra işğaldan azad edilmiş ərazilərimizin tez bir zamanda minalardan təmizlənməsi məsələsi yalnız Azərbaycan üçün deyil, onları torpaqlarımıza basdıran Ermənistan, eləcə də yeni kommunikasiya xətlərindən faydalanmaq istəyən digər dövlətlər üçün də maraqlı olmalıdır.

Azərbaycanın azad edilmiş ərazilərdə quruculuq işlərinə başlamasına mane törətməkdən, məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışını yubatmaqdan ötəri Ermənistan minaların basdırıldığı xəritələri Azərbaycana təhvil vermək istəmir, bunun üçün müxtəlif bəhanələr gətirir. Azərbaycan tərəfinin müharibənin bitməsindən sonra atdığı bütün addımlara baxmayaraq, Ermənistan öz terrorçu siyasətinin mahiyyətini dəyişmək istəmir, bəşəri və hərbi cinayətlərini davam etdirir. Beynəlxalq hüququn norma və prinsiplərinə açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistanın bu addımı ağır cinayət hesab edilir.

Ermənistanın bu məkrli siyasəti nəticəsində minaların qurbanına çevrilən hərbçi və mülki şəxslərin sayı getdikcə artır. Ermənilərin Kəlbəcərdə basdırdığı minaların partlaması nəticəsində peşə fəaliyyətini yerinə yetirən azərbaycanlı media işçiləri Məhərrəm İbrahimov və Sirac Abışov növbəti qurbanlar oldular.

## Dünya "dur" demədikcə…

Ötən ilin 10 noyabr tarixində üçtərəfli birgə Bəyanatın imzalanmasından sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərində 140 nəfərdən çox insan minaya düşüb. Onlardan 27 nəfər həlak olub, digərləri isə müxtəlif növ bədən xəsarətləri alaraq əlil olublar.

Azad edilmiş ərazilərimizdə ermənilərin basdırdığı işarələnməmiş minaların xəritələri verilmədikcə bu cür faciələrin təkrarlanması istisna olunmur...

Bu gün Azərbaycan humanist, Ermənistan isə terror siyasətini dünyaya nümayiş etdirir. Amma hələ də ikili standartlardan çıxış edən dünya Ermənistanın bu siyasətinə qapalı gözlə baxır. Dünya ölkələri və beynəlxalq təşkilatlar öz gözlərini açaraq terror törətməkdən usanmayan, minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən boyun qaçıran Ermənistanı dayandırmalıdırlar. Dünya Ermənistana "dur" demədikcə o, öz əməlləri ilə regionun təhlükəsizliyi üçün təhdid törətməkdə davam edəcək.

***İlhamə İSABALAYEVA***
***"Azərbaycan"***

# Salyanın kənd yolları yenidən qurulur

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində Salyanda da kəndarası yollar abadlaşdırılır. Hazırda Kürqaraqaşlı, Beştalı, Cəngən, Xocalı və Ərəbqardaşbəyli kəndlərinin yollarına asfalt döşənir.



Həmin kəndlər qıvrıla-qıvrıla axıb gedən Kür çayının sahilində yerləşir. Bu kəndlərin əhalisi indiyə kimi hələ sovet zamanında çəkilmiş yollardan istifadə edirdi. Bu səbəbdən təbii ki, yol istismar müddətini başa vurmuş, sökülüb dağılmışdı. Əhali payızın, qışın yağışlı-qarlı, yayın toz-torpaqlı günlərində olmazın əzab-əziyyət çəkirdi. Sakinlər əlacsızlıqdan kanalların üstündəki tirələri özlərinə piyada yolu seçirdilər.

Artıq bu əziyyətlərin sonu çatmaq üzrədir. Beş kəndi birləşdirən 15,3 kilometrlik asfalt yol 2,9 min nəfərin gediş-gəlişini, habelə onların istehsal etdikləri müxtəlif kənd təsərrüfatı məhsullarını satmaq üçün rayon mərkəzinə və digər yerlərə aparmaq imkanlarını xeyli yaxşılaşdıracaqdır.

Tikinti işlərinə aprel ayının əvvəllərində başlanılıb. İndiyədək ümumi işin 80 faizi görülüb. Tikintiyə 15 adda texnika cəlb olunub və burada 30 nəfər işçi çalışır. Yolun texniki göstəriciləri belədir: eni başdan-başa 6, hər iki tərəfdən çiyin hissələri 1,5, bəzi yerlərdə 2 metrdir. Dördüncü dərəcəli yolun özül hissəsinə torpaq yayılıb üstündən çınqıl döşənir, su səpilərək texnika ilə kipləşdirilir, sonra isə asfaltlaşdırılır. Bu proses iki mərhələdə aparılır. Hər bir qat 6 santimetr qalınlığında olmaqla, ümumilikdə, 12 santimetrdir. Yolboyunca suötürücü qurğular və körpülər quraşdırılır. Qeyd etmək lazımdır ki, yeni yolların hamısı, o cümlədən sözügedən yol da əvvəlkilərdən keyfiyyəti ilə fərqlənir. Bütün işlərin iyulun sonuna kimi başa çatdırılması planlaşdırılmışdır.

Beləcə, Salyan rayonunun kənd yolları yenidən qurulmaqda davam edir. Bundan əvvəl isə Arbatan, Marışlı, Seyidsadıqlı, Kürsəngi, Yolüstü, Xurşud, Çuxanlı, Parça Xələc, Seydan, Cəngən və digər kəndlərin yolları yenidən çəkilmiş, Salyan şəhərini ikiyə bölən Kür çayı üzərində möhtəşəm körpü salınmışdır. Bu körpü salyanlıların çoxdankı arzusu idi. Hətta sovet hakimiyyəti də insanların bu arzusunu reallaşdıra bilməmişdir.

Bütün bu nailiyyətlər, əlbəttə ki, ilk növbədə, müstəqilliyimizin bəhrəsidir. Yol çəkmək, körpü salmaq isə həmişə savab və xeyirxah iş sayılıb:

*Yollar rişə-rişə, damar-damardır,*
*Yollarda qoşadır xeyir ilə şər.*
*Yollar dağ-dərəli, həndir-hamardır,*
*Onlar körpülərdə gəlib birləşər.*

*Körpülər yollarla verib əl-ələ*
*Neçə kənd-şəhəri qohum edərlər.*
*Bir oğul evlənsə, bir gəlin köçsə,*
*Körpülər toy günü yallı gedərlər.*

*Keçib dərələri, keçib dağları,*
*Yamacda tövşüyər, yolda burular.*
*Sahildən-sahilə çatan yollara*
*Körpü əlləriylə düyün vurular.*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Bəsləsən atlas olar tut yarpağından

Qədim tarixə malik baramaçılığa Azərbaycanda gəlirli sahə kimi həmişə böyük maraq olub. Qədim İpək yolu üstündə yerləşən Azərbaycan ipək istehsalçısı və ixracatçısı kimi nəinki Asiyada, eləcə də Avropada böyük şöhrət qazanıb.



Təəssüflər olsun ki, sovetlər birliyi dağıldıqdan sonra digər sahələr kimi, baramaçılıqda da iqtisadi əlaqələr kəsilmiş, ipək istehsalı demək olar ki, dayanmışdı. Ancaq Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə baramaçılıq yenidən dirçəldilmişdir. Ölkə iqtisadiyyatında ənənəvi sahələrdən olan baramaçılığın inkişafı Prezident İlham Əliyev tərəfindən də diqqət və qayğıkeşliklə əhatə edilmişdir. İndi baramaçılıq Azərbaycanda yeni inkişaf dövrünü yaşayır. Xüsusilə dövlət səviyyəsində verilən dəstək sayəsində əhalinin bu sahəyə marağı sürətlə artır.

Goranboylular da hər il bu sahədə uğurlu nəticələrə nail olurlar. Cəmi 40 gün ərzində çəkdikləri əziyyətin bəhrəsini görən rayon kümçüləri baramaçılığın iqtisadi cəhətdən gəlirli olmasını deyirlər.

Keçən ildən fərqli olaraq bu il rayon kümçüləri daha çox - ümumilikdə 150 qutu baramaqurdunun toxumlarını götürmüşlər. Özü də həmin toxumların dəyəri dövlət vəsaiti hesabına ödənilmişdir. 46 kənd üzrə 91 kümçü ilə müqavilə bağlanmışdır. Artıq bir aydır ki, təsərrüfat sahibləri barama istehsalına başlamışlar. Barama qurdlarının yemləndirilməsində də heç bir problem yoxdur. Belə ki, rayon ərazisində 27 min tut tingi əkilmişdir və artıq həmin ağaclar bara düşmüşdür. Qızılhacılı, Səmədabad, Faxralı və digər kəndlərin ərazilərində əkilən tut ağaclarının bir hissəsi Çin, bir hissəsi isə yerli sortlardır. Təkcə Faxralı kəndi ərazisində 4 min tut ağacı yetişdirilmişdir.

Xan Qərvən rayonun ən böyük kəndlərindəndir. Kəndin əhalisi 4200 nəfərdən çoxdur. 1204 təsərrüfatı olan kənddə əhalinin bir hissəsi heyvandarlıq və əkinçiliklə, bir hissəsi baramaçılıqla məşğuldur. İcra nümayəndəsi Adil Şirinov deyir ki, xan qərvənlilər baramaçılığa böyük maraq göstərirlər: "Onlar Yeni Yol kəndinin sakinləri ilə birlikdə hər il baramaçılıqda yüksək məhsuldarlıq əldə edirlər. 2016-cı ildən bu gəlirli sahəyə maraq göstərən kənd sakinləri keçən il bir qədər həvəsdən düşdülər. Təəssüflər olsun ki, onların götürdükləri 10 qutu baramaqurdunu xəstəlik vurduğundan məhsuldarlıq çox aşağı oldu. Buna baxmayaraq, bu il iki kəndin 8 sakini birləşərək 10 qutu barama-qurdu götürmüşdür. İndi şükürlər olsun ki, vəziyyət yaxşıdır. Yem sarıdan da elə bir problem yoxdur. Kəndin ərazisində istənilən qədər tut ağacı var. Onlar bu il 400 əvəzinə 600 kiloqramdan artıq barama təhvil verəcəklərinə əmindirlər".

Kənd sakinlərindən Rafiq Babayev, Elbrus Tanrıverdiyev, Elməddin Babayev, Fuad Cəlilov və Kamal Qarayev artıq baramaçılıq sahəsində zəngin təcrübə toplayıblar. Onların təxmini hesablamalarına görə, bu il məhsuldarlıq daha yüksək olmalıdır.

Əlirzalı kəndində də baramaçılığa böyük maraq var. Kənd icra nümayəndəsi Nizadil Hüseynovla söhbətdən məlum oldu ki, kənddə yaşayan 1244 nəfər əhalinin bir hissəsi baramaçılıqla məşğuldur. Sakinlər birləşərək bu il 6 qutu barama toxumu götürmüşlər. Vəziyyətin ürəkaçan olduğunu bildirən icra nümayəndəsi əlavə etdi ki, kümçülər 240 kiloqram barama təhvil verməyi qarşılarına məqsəd qoymuşlar. Lakin ümumi vəziyyət onu deməyə əsas verir ki, bu rəqəm bir qədər də yüksək olacaq. Kənd sakinlərindən Sənan Salahov, Həmid Əliyev, İlqar Abbasov, Faiq Quliyev, Mərdan Əliyev və başqaları hər il baramadan yaxşı qazanc götürürlər.

Sonda onu qeyd edək ki, bu il Goranboy kümçüləri ümumilikdə, 6000 kiloqram barama təhvil verməyi qarşılarına məqsəd qoymuşlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Futbol üzrə

# XVI Avropa çempionatı



# Avropa çempionluğuna gedən yol Bakıdan da keçir

Paytaxtımız "Avro-2020"nin 4 matçına evsahibliyi edir

XVI qitə birinciliyində komandaların sayının, xüsusən də qələbəyə iddialı kollektivlərin çox olması azarkeşlərə maraqlı və gərgin idman mübarizəsi vəd edir. Belə ki, son Avropa birinciliyinin qalibi Portuqaliya, hazırkı dünya çempionu Fransa, çempionatlara xüsusi oyun planı ilə rəng qatan Almaniya, "Biz bitdi demədən bitməz" deməklə sürpriz nəticələr qazanan Türkiyə, eləcə də heyətlərində ulduz futbolçuların yer aldığı İtaliya, İngiltərə favoritlər hesab olunur.

## "AVRO-2020"nin evsahibləri

| Yer | Tutumu | Azarkeş icazəsi |
|---|---|---|
| "Puşkas" (Budapeşt) | 67.215 | 67.215 |
| "Olimpiya" (Bakı) | 68.700 | 34.350 |
| "Yeni Zenit" (Sankt-Peterburq) | 68.134 | 34.067 |
| "Olimpiya" (Roma) | 70.634 | 23.309 |
| "Uembli" (London) | 90.000 | 22.500 |
| "Milli Arena" (Buxarest) | 55.600 | 18.348 |
| "Yohan Kroyf Arena" (Amsterdam) | 54.990 | 18.146 |
| "Estadio La Kartuxa" (Sevilya) | 60.000 | 18.000 |
| "Hempden Park" (Qlazqo) | 51.866 | 17.115 |
| "Allianz Arena" (Münxen) | 75.000 | 14.000 |
| "Parken" (Kopenhagen) | 38.065 | 12.561 |



Məlum olduğu kimi, Bakıda 4 qarşılaşma keçiriləcək ki, bunlardan 3-ü A qrupunun matçlarıdır. Bütün bunları nəzərə alaraq A qrupunda yer alan komandaların mövcud vəziyyəti barədə qısa məlumat vermək istərdik.

"Avro-2020"nin A qrupunda yer alan ev sahiblərindən İtaliya tarixində ilk dəfə qitə çempionu olmaqla yanaşı, 3 dəfə də ardıcıl turnirin finalında çıxış edib. 2006-cı ildə dünya çempionu olduqdan sonra elə də yüksək nəticə göstərə bilməyən italyanların azarkeşlərin dəstəyindən istifadə edərək çempion olmaq üçün ciddi mübarizə aparacaqları şübhəsizdir. Roberto Mançininin komandasındakı oyunçular əsasən "İnter", "Yuventus", "Roma", "Latsio" və "Napoli"də forma geyinirlər. Lakin İtaliya klublarının ötən mövsüm avrokuboklarda heç də uğurlu olmayan çıxışlarının milli komandaya necə sirayət edəcəyi də çox maraqlıdır. Hücumçulardan Çiro İmmobile 2020-2021-ci il mövsümünü olduqca yüksək səviyyədə keçirib. Heyətində "İnter"də uğurla çıxış edən Nikolo Barella, "Çelsi"də Jorqinyo və "PSJ"də Marko Veratti kimi yarımmüdafiəçilər olan komandanın müdafiə xətti də inamlı təsir bağışlayır. 2006-cı il dünya birinciliyindən sonra Avropa və dünya çempionatlarında güclü rəqiblərlə qarşılaşmada qələbə qazana bilməyən italyanlar üçün qitə birinciliyinin ilk oyununda Türkiyəyə qalib gəlmək mühüm əhəmiyyət daşıyır.

A qrupunun digər favoriti yeni nəsil futbolçuları ilə seçilən, təsnifat mərhələsində öz qapısından cəmi 3 top buraxan Türkiyə millisidir. Turnirə kimi keçirdiyi 3 yoldaşlıq qarşılaşmasının 2-dən qalib ayrılan Türkiyə çempionatın ən inadkar komandalarındandır. Təsnifat mərhələsində yer aldığı qrupda Fransa ilə birlikdə çempionata vəsiqəni çətinlik çəkmədən əldə edən Türkiyə oynadığı matçlarda nümayiş etdirdiyi kompakt futbolla diqqət mərkəzindədir. Müdafiədə Merih Demiral, Çağlar Söyüncü, yarımmüdafiədə Hakan Çalhanoğlu, Yusuf Yazıcı və Okay Yokuşlu ilə çox yaxşı bir komanda formalaşdıran Şenol Günəşin hücum xəttində əsas qol silahı isə Burak Yılmaz olacaq. Start 11-likdə yer alan oyunçulardan 9-nun legioner həyatı yaşaması da "ay-ulduzlular"ın daha baxımlı futbol nümayiş etdirməsində mühüm rol oynayır.

Təsnifat mərhələsində D qrupunun lideri olaraq final mərhələsinə vəsiqə qazanan İsveçrə qatıldığı turnirlərdə bir qədər qəribə çıxışları ilə yadda qalıb. Belə ki, qatıldığı son 6 dünya və Avropa çempionatlarının 4-də qrup mərhələsini rahat keçən isveçrəlilər sonrakı mərhələdə məğlub olaraq mübarizəni dayandırıblar. Onu da deyək ki, İsveçrə millisi eyni qrupda yer aldığı Türkiyə yığması ilə "Avro-2008"də qarşılaşmış və 1:2 hesabı ilə uduzmuşdu. Komandanın heyətində daha çox diqqət çəkən futbolçular Qranit Caka və Xerdan Şakiridir.

Avropa çempionatına qatılan və sürpriz nəticə gözlənilən komandalardan biri də Uelsdir. Uelslilərin "Avro-2020"yə yüksəlməsində sözsüz ki, "Real"ın ulduzu Qaret Beylin rolu böyükdür. Komandanın seçmə mərhələdə qazandığı qələbələrdə oyun planında önəmli rol oynayan Beyl baş məşqçi Rayan Qiqqsin əvəzedilməz futbolçularından biridir. Komandanın heyətində yer alan futbolçular əsasən İngiltərə Premyer Liqasında və Uels liqasında forma geyən oyunçulardır.

Beləliklə, azarkeşlərin böyük səbirsizliklə gözlədikləri "Avro-2020" həyəcanı başlayır. Bakı Olimpiya Stadionunda iyunun 12-də Uels - İsveçrə, iyunun 16-da Türkiyə - Uels, iyunun 20-də isə İsveçrə - Türkiyə matçları oynanılacaq. İyulun 3-də isə Azərbaycan dörddəbir final mərhələsinin bir qarşılaşmasına evsahibliyi edəcək. Ümid edirik ki, Bakıda keçiriləcək oyunlarda tamaşaçılar baxımlı və gərgin matçların şahidi olacaqlar.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



## "Avro-2020"nin təqvimi

11 iyun

**A qrupu**

***23:00 İtaliya - Türkiyə***
***Roma, Olimpiya Stadionu***

## Açılış matçının hakimləri məlum oldu

Bu gün başlayacaq "Avro- 2020"nin açılış qarşılaşması olan İtaliya-Türkiyə matçının hakim təyinatları açıqlanıb. Romadakı "Olimpiko" stadionunda keçiriləcək görüşü Niderlanddan olan hakimlər briqadası idarə edəcək. Oyunun baş hakimi Danni Makkeli olacaq. Ona yan xətt hakimləri Hessel Steeqstra və Yan de Vris kömək edəcəklər. Dördüncü hakim funksiyasını isə fransalı qadın referi Stefan Frappart yerinə yetirəcək.

Qeyd edək ki, İtaliya-Türkiyə matçı bu axşam Bakı vaxtı ilə saat 23:00-da start götürəcək.





## Donni van de Bek heyətdən çıxarıldı

Niderland millisinin üzvü Donni van de Bek "Avro-2020"də oynamayacaq. Niderland Futbol Federasiyasının rəsmi "Twitter" səhifəsində yazılan məlumata görə, 24 yaşlı yarımmüdafiəçi zədələnib.

Baş məşqçi Frank de Bur oyunçunun əvəzinə yığmaya heç kəsi dəvət etməyəcək.

Qeyd edək ki, "Mançester Yunayted"in futbolçusu ötən mövsüm Premyer Liqada 19 matçda meydana çıxıb.

## Biliç: "Türkiyə 2002-ci ildəki komandaya bənzədilir"

Xorvatiya millisinin sabiq baş məşqçisi Slaven Biliç "Avro-2020"nin iştirakçısı olan Türkiyə komandası barədə fikirlərini bildirib. O, "Fanatik" qəzetinə müsahibəsində "ay-ulduzlular" haqda müsbət fikirlər səsləndirib. Biliç deyib: "Türkiyənin qrupu barədə fikir söyləmək istəmirəm. Hər qrup və matç çox önəmlidir. Türkiyənin oyunçuları həqiqətən böyük futbolçulardır. Əksəriyyəti xaricdə çıxış edir. Eyni zamanda gənc futbolçuları var. Heyətdə Burakla yanaşı, Çağlar, Ozan Kabak, Merih Demiral, Hakan Çalhanoğlu, Zeki Çelik ve Okay Yokuşlu kimi önəmli futbolçular yer alıb".



Biliç bildirib ki, hazırkı Türkiyə millisinə qarşı oynamaq əvvəlkilərlə müqayisədə daha çətindir: "Komandaya Şenol Günəş kimi çox təcrübəli məşqçi rəhbərlik edir. Qarşımda enerjisi və motivasiyası yüksək, uğura ac olan və onu qazanmağa köklənən bir komanda görürəm. Türkiyədəki futbol iqliminə bələd biri kimi qeyd edim ki, insanlar tez-tez bu komandanı 2002-ci ildəkinə bənzədirlər".

Xorvatiyalı çalışdırıcının sözlərinə görə, hazırkı millidə böyük klublarda oynayan daha çox oyunçu yer alıb: "Lester"də Çağlar, "Liverpul"da Ozan, "Milan"da Hakan, çempion olan "Lill"də Burak, Zeki və Yusuf kimi adlar var. Türkiyəyə qarşı məşqçi və futbolçu kimi bir neçə dəfə rəqib olmuşam. Mənim vaxtımda "Beşiktaş", "Qalatasaray" və "Fənərbaxça"da oynayanlar Türkiyə millisində rahatlıqla start heyətə düşürdü. Ancaq indi belə bir şey yoxdur. Üç böyük klubda oynasalar da, milliyə düşmək kimi təminatları yoxdur".

S.Biliç 35 yaşlı Burak Yılmaz barədə də müsbət sözlər deyib: "Daha əvvəl Atiba Xatçinson barədə dediyim əfsanə, əsl idmançı və nümunəvi peşəkar sözləri Burak Yılmaza da aiddir. O, istəsəydi, Türkiyədə rahat bir həyatı seçər və yaxşı pul qazanardı. Ancaq əksini etdi, Fransada "Lill" klubuna keçdi. Karyerasında bir çox çempionluğa baxmayaraq, oradakı gənc futbolçularla birincilik savaşına girdi, PSJ kimi nəhəngin çıxış etdiyi liqada tarixi uğurun memarlarından oldu. Burak da Atiba kimi əsl idmançıdır. Bəzən 20 yaşındakı futbolçuların oyuna olan aclığı yoxa çıxır. Burak Yılmaz isə bu məsələdə mükəmməl bir örnəkdir. 35 yaşda olmasına baxmayaraq, hələ də çox istəklidir. İnanıram ki, "Avro-2020"də ölkəsi üçün mühüm işlər görəcək".



## Mançini Fransadan çəkinir

İtaliya millisinin baş məşqçisi Roberto Mançini "Avro-2020" öncəsi ən güclü rəqiblərinin adını açıqlayıb. O, Fransa yığmasını fərqləndirib:

"Bu turnirdə çox yaxşı komandalar var. Ancaq birinin adını çəkməli olsaydım, bəlkə də Fransanı seçərdim, çünki onlar dünya çempionudurlar. 2018-ci ildə keçirilən dünya çempionatında qalib gələn çox gənc komandaya sahibdirlər, indi daha da güclüdürlər. Fikrimcə, onlarla yalnız finalda görüşə bilərik. Ümid edirəm ki, həlledici görüşdə Fransa ilə oynayacağıq".

Qeyd edək ki, İtaliya millisi qrup mərhələsində Türkiyə, İsveçrə və Uels komandalarına qarşı oynayacaq.

## Türkiyəli azarkeşlər Romaya buraxılmır

"Avro-2020"nin İtaliya ilə Türkiyə arasında keçiriləcək açılış oyunu öncəsi ciddi problem yaşanıb. Bu gün Romada baş tutacaq qarşılaşmanı türkiyəli azarkeşlər izləyə bilməyəcək. Buna səbəb İtaliya hökumətinin verdiyi yeni qərardır. Həmin qərara əsasən yalnız Şengen bölgəsi ölkələrinin vətəndaşları İtaliyaya buraxıla bilər. Türkiyə Şengen bölgəsi ölkəsi olmadığından "ay-ulduzlular"ın fanatları sevimli komandanı tribunalardan dəstəkləyə bilməyəcək. Halbuki türkiyəli azarkeşlər Romadakı görüşə bilet də alıblar.

Qeyd edək ki, Türkiyə-İtaliya oyununu qəbul edəcək Roma Olimpiya Stadionunun 25 faizinə tamaşaçı buraxılacaq.





## Pelleqrini heyətdən çıxarılır

**İtaliya millisinin "Avro-2020" üçün iştirak ərizəsində dəyişiklik edilə bilər. Bununla bağlı UEFA-ya rəsmi müraciət göndərilib.**

İtaliyalılar məşqdə zədələnən yarımmüdafiəçi Lorenso Pelleqrininin heyətdən çıxarılmasını xahiş edib. UEFA dəyişikliyə icazə versə, onu Qaetano Kastrovilli əvəzləyəcək.

Qeyd edək ki, İtaliya millisi bu gün açılış matçında Türkiyə ilə qarşılaşacaq.



## Çalhanoğludan italyanlara gözdağı

Türkiyə millisinin yarımmüdafiəçisi Hakan Çalhanoğlu "Avro-2020"nin İtaliyaya qarşı keçiriləcək açılış oyunu ilə bağlı fikirlərini açıqlayıb.

Jurnalistlərə danışan "Milan"ın futbolçusu deyib: "Açılış görüşü olduğundan bizim üçün çox özəl oyun olacaq. İnşallah, yaxşı başlayacağıq. İtaliya çox güclüdür. İtaliyanlar bizi yaxşı tanıyır. Qorxaq futbol yox, qələbə üçün oynayacağıq. Hücumçumuz Burak bizim üçün çox önəmlidir. Klubunu çempion etdi. Onun motivasiyasını yüksək tutmağımız lazımdır".

Hakan transferi ilə bağlı isə danışmaq istəməyib: "İndi "Avro-2020"yə köklənmək istəyirəm. Mənim üçün xeyirlisi nədirsə, o da olsun".

# Mir Cəlal və müasirləri

Zəngin tarixi ənənələri olan, dünya bədii fikrinə böyük ədəbi simalar bəxş edən Azərbaycan ədəbiyyatının sovet dövrünü müstəqil dövlətimizin yaratdığı demokratik elmi prinsiplər zəminində öyrənmək sahəsində AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ardıcıl iş aparılır. Bu dövrün məzmun və sənətkarlıq baxımından indi də yaşayan, siyasi konyunkturadan kənar ədəbi nümunələrini, onu yaradan sənətkarların yaradıcılıq yolunu işıqlandıran çoxsaylı kitablar sırasında “XX əsr ədəbiyyatı məsələləri” seriyasından nəşr edilən əsərlərin xüsusi yeri var.




Professor Şirindil Alışanovun rəhbərliyi və elmi müdaxiləsi ilə 2006-cı ildən çap olunmağa başlanmış bu kitablarda XX əsr (sovet dövrü) klassiklərinin irsi fonunda ötən əsrin ədəbi gedişatının ən mürəkkəb, bu gün də ciddi mübahisə doğuran məsələləri tədqiq olunur. Bu araşdırmalarda əsas elmi prinsip belə müəyyənləşdirilir: “Nəzəri konsepsiyalarla milli ədəbi təcrübənin yekunlarının vəhdətdə götürülməsi müasir nəzəri-metodoloji böhrandan çıxmağın səmərəli, düzgün yoludur”. XX əsr ədəbiyyatının klassikləri Məmməd Arif, Səməd Vurğun, Mikayıl Müşfiq, İlyas Əfəndiyev irsinə həsr olunmuş dörd kitabdan sonra bu seriyadan beşinci kitab görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlala həsr olunmuşdur. Elmi məcmuənin “Mir Cəlal və müasirləri” adlandırılması təsadüfi deyil. Kitabda XX əsr Azərbaycan ədəbiyyatının ədəbi-nəzəri fikrinin görkəmli nümayəndəsi Mir Cəlalın bədii və elmi irsi yaşadığı dövrün ədəbi gedişatının ən vacib problemləri, mətləbləri fonunda öyrənilir. Mir Cəlalın müasirləri Səməd Vurğun, Mirzə İbrahimov, Süleyman Rəhimov, İlyas Əfəndiyev, Həmid Araslı, Məmməd Arif, eləcə də ötən əsrin 20-30-cu illərinin ədəbi prosesində iştirak etmiş Seyid Hüseyn, Y.V.Çəmənzəminli kimi yazıçıların yaradıcılığı təhlilə cəlb olunur.

Mir Cəlal sənətinin ideya-bədii özəllikləri, onun bir şəxsiyyət və pedaqoq kimi xidmətləri yeni faktlar, təhlillərlə müasir nəsillərə çatdırılır. Kitab bu gün ədəbiyyatşünaslıq sahəsində çalışan görkəmli alimlər tərəfindən yazılmışdır. Yeni nəşr Xalq yazıçısı, professor Elçinin “Yazıçı, alim, pedaqoq” məqaləsi ilə açılır. Elçin öz müəllimi, ustadı haqqında olduqca səmimi bir ruhda söhbət açır, Mir Cəlalın yazıçı, alim, pedaqoq kimi portretini yaradır. Akademik İsa Həbibbəylinin “Mir Cəlal ədəbi-elmi məktəbi: sadəlik, dərinlik və professionallıq” başlıqlı məqaləsi klassik örnəyə müasir aspektdən dəyər verməyin nümunəsidir. Hər iki məqalədə həm bədii nəsrimizin, həm də ədəbiyyatşünaslıq elmimizin inkişafında Mir Cəlalın xidmətləri onun zəngin irsindən gətirilən faktik material əsasında üzə çıxardılır. Professor Şirindil Alışanovun “XX əsr Azərbaycan ədəbiyyatının Mir Cəlal fenomeni” məqaləsi belə bir dəyərləndirmə ilə başlayır: “Mir Cəlal Paşayevin zəngin yaradıcılıq yolu, pedaqoji fəaliyyəti XX əsr Azərbaycan tarixi ədəbi prosesinin həm təcrübi, həm də nəzəri-estetik təkamül prosesini özündə ehtiva edən dəyərli milli mənəvi sərvətdir. O, XX əsr ədəbiyyatının elə klassiklərindəndir ki, onun bədii və elmi irsi böyük bir zaman kəsiyində bədii fikrin sənətkarlıq uğurları, poetik nailiyyətləri ilə yanaşı, ədəbi tənqidin və ədəbiyyatşünaslığın da nəzəri-metodoloji inkişaf mərhələlərinin mahiyyətini özündə əks etdirir”. Məqalədə Mir Cəlal irsini XX əsr ədəbiyyatının fenomeninə çevirən mətləblər şərh olunur.

AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun, filologiya elmləri doktorları Bədirxan Əhmədov, Mahirə Quliyeva, Vaqif Yusifli, Mərziyyə Nəcəfova, Təyyar Salamoğlunun və filologiya üzrə fəlsəfə doktorları Aygün Bağırlı, İlham Məmmədli və Yadigar Əsgərovanın məqalələrində Mir Cəlal yaradıcılığının əsas istiqamətləri bu günə qədər elmi dövriyyədə olmayan, kifayət qədər öyrənilməmiş faktlar əsasında tədqiq olunur. Mir Cəlalın romanlarında zaman və məkan problemi, Mir Cəlal gülüşünün səciyyəsi, onun romanlarının janr tipologiyası, Mir Cəlal nəsrində həyat həqiqətləri və bədii həqiqət, sənətkar və zaman kimi məsələlərin işığında yazıçının sənətkarlıq istiqamətindəki axtarışları təhlil olunur.

Kitabın elmi quruluşu elə düşünülüb ki, Mir Cəlal sənətinin qaynaqları ilə yanaşı mənsub olduğu müasirləri ilə yaradıcılıq əlaqələri, ötən əsrin 30-60-cı illərinin ədəbi-elmi prosesi ilə bağlılığı haqqında təsəvvür yaransın. “Mirzə İbrahimov və XX əsr Azərbaycan ədəbi-nəzəri fikri” (S.Alışanov), “1920-30-cu illər Azərbaycan satirik hekayəsinin janr təkamülü” (B.Əhmədov), “1920-30-cu illər hekayəsində yeni insan konsepsiyası” (S.Quliyeva), “XX əsr hekayəsində milli xarakter” (A.Rüstəmzadə) və digər məqalələr bir çox problemləri işıqlandırır.

“XX əsr Azərbaycan ədəbiyyatı məsələləri” seriyasından “Mir Cəlal və müasirləri” mövzusuna həsr olunmuş kitab müasir ədəbiyyatşünaslığımızın yüksək səviyyəsini əks etdirir.

XX əsr ədəbiyyatımızın klassiklərindən olan professor Mir Cəlalın bədii və elmi yaradıcılığının, şəxsiyyətinin yüksəkliyini, müəllim kimi bənzərsiz mənəvi keyfiyyətlərini oxuculara çatdırır. “Mir Cəlal müəllim Azərbaycanda ədəbiyyat adamlarının bir neçə nəslinin müəllimi olmuşdur. Filologiya fakultəsində təhsil almış hər bir tələbə öz ailəsinə, işlədiyi kollektivə, dərs dediyi sinif otağına Mir Cəlal müəllimin sadəlik, paklıq işığından pay aparmışdır”. (Ş.Alışanov)

Vaxt ötdükcə xalq həyatını Azərbaycan dilinin zəngin imkanları zəminində, yüksək vətəndaşlıq mövqeyindən əks etdirən Mir Cəlal kimi yazıçıların ömür və sənət ənənələri yeni araşdırmaların predmeti olacaqdır.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Sosial Xidmətlər Agentliyi” Publik Hüquqi Şəxsi

### *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Sosial Xidmətlər Agentliyi” Publik Hüquqi Şəxsi Agentliyin Aparatı üçün “Qayğı mərkəzi” və “Vətəndaş qəbulu” altsistemlərinin qurulması xidmətinin satın alınması üzrə açıq tender elan edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Müqavilə üzrə malların təqdim olunacağı ünvan-Agentliyin Aparatı

Mallarının son çatdırılma müddəti- Mallar satınalma müqaviləsi bağlanıldıqdan sonra 150 təqvim günü ərzində çatdırılmalıdır.

**İştirak haqqı: 100 (bir yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində “Sosial Xidmətlər Agentliyi” publik hüquqi şəxsi.**

**H.Hesabı: AZ88IBAZ38060019447403110206**
**VÖEN : 1405196831**
**Bank: Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN: 9900001881**
**Müxbir hesab: AZ03NABZ01350100000000002944**
**S.W.İ.F.T BİK: IBAZAZ2X**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il ərzində riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) (01.04.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir).
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə).
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) (01.04.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir).
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar).
8. İcraçının fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmətlərin göstərilməsinə dair lisenziyası təqdim olmalıdır (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
9. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasına dair məlumat (Son dövrə olan məlumat qəbul edilir).
10. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) (01.04.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir).
11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olmasına dair məlumat (Son dövrə olan məlumat qəbul edilir).
12. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Son dövrə olan məlumat qəbul edilir).
13. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (Son dövrə olan məlumat qəbul edilir).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 02.07.2021-ci il saat 17:05-ə qədər və tender təklifi ilə bank təminatı sənədlərini isə 12.07.2021-ci il saat 12:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 13.07.2021-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vastəsilə aparılır.

***Tender komissiyası***

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs 1 illik Microsoft 365 Business Standard lisenziyalarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. 1 illik Microsoft 365 Business Standard lisenziyalarının satın alınması.

İştirak haqqının ödənilməsi yalnız “ASAN ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra “ASAN ödəniş et” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 100.00 (bir yüz) manat.**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: “Kapital Bank” ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**
**Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu:**
**(+99412) 310-07-70 (daxili 2022)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
2) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış.
3) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
4) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
5) Tender təklifi (zərflərinin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır).
6) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
7) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
8) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.
9) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.
10) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
11) tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə).
12) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Qeyd olunan sənədlər Azərbaycan dilində düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə, satınalan təşkilat tenderdə iştirak etmək istəyən malgöndərəni (podratçını) iddiaçı kimi qeydə alacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 05.07.2021-ci il saat 17:00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 13.07.2021-ci il saat 18:00-dək Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçının təklifləri 14.07.2021-ci il saat 17:00-da Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər. İddiaçılar tender ilə bağlı sualları vahid internet Portalında nəzərdə tutulmuş müvafiq bölmədə satınalan təşkilata ünvanlaya bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun aparatında və struktur bölmələrində əmək haqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin alınması.

Tender iştirakçılarına təklif edilir ki öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 (Tender komissiyası (012) 530 29 03 e.poçt: tender@sosial.gov.az) ünvanından ala bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə:
1.1 Peşəkarlığı, təcrübəsi, texniki imkanları, idarəetmə səriştəsi və etibarlığı barədə məlumatlar (xidmət göstərən tərəfindən hazırlanır).
1.2 İşçi qüvvəsinin olması barədə məlumatlar (xidmət göstərən uçotda olduğu vergi orqanından).
2. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (xidmət göstərən kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd).
3. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumatlar (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
4. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması haqqında məlumat (xidmət göstərən bu məlumatı Ədliyyə Nazirliyindən və ya Kommersiya Məhkəməsindən alır).
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (xidmət göstərən uçotda olduğu vergi orqanından alır, sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
6. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; (xidmət göstərən Daxili İşlər Nazirliyindən və ya ASAN xidmət mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır).
7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, bank lisenziyası, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.
9. İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır). (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
10. İddiaçının tender təklifi (ən azı 30 bank günü qüvvədə olmalıdır).
11. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tələb olunur (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 15.07.2021-ci il saat 15:00-a qədər tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 29.07.2021-ci il saat 15:00-a qədər Həsən bəy Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 30.07.2021- cı il saat 15:00 -da H.Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu

### *açıq tender elan edir*

Dövlət Sosial Müdafiə Fondunun (bundan sonra-Fond) aparatında və struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi, 80 (Tender komissiyası (012) 530 29 03 e.poçt: tender@sosial.gov.az) ünvanından ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün tələb olunan sənədlər:

1. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə:
1.1 Peşəkarlığı, təcrübəsi, texniki imkanları, idarəetmə səriştəsi və etibarlılığı barədə məlumatlar (xidmət göstərən tərəfindən hazırlanır).
1.2 İşçi qüvvəsinin olması barədə məlumatlar (xidmət göstərən uçotda olduğu vergi orqanından).
2. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (xidmət göstərən kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənəd).
3. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumatlar (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
4. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması haqqında məlumat (xidmət göstərən bu məlumatı Ədliyyə Nazirliyindən və ya Kommersiya Məhkəməsindən alır).
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqındı məlumat (xidmət göstərən uçotda olduğu vergi orqanından alır, sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
6. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; (xidmət göstərən Daxili İşlər Nazirliyindən və ya ASAN Xidmət Mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır).
7. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, bank lisenziyası, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına dair müstəqil auditorun hesabatı.
9. İri sahibkarlıq meyarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır). (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir).
10. İddiaçının tender təklifi (ən azı 30 bank günü qüvvədə olmalıdır).
11. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tələb olunur (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır) Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 15.07.2021-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 29.07.2021-ci il saat 16:00-a qədər Həsən bəy Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 30.07.2021- ci il saat 16:00-da H.Zərdabi, 80 ünvanında yerləşən Dövlət Sosial Müdafiə Fondunun Aparatında Tender komissiyasının iştirakı ilə aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Müvafiq orqanlardan tələb olunan sənədlərin alınması cari ayı əhatə etməsi mütləqdir.

***Tender komissiyası***

## “Azərsu” ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsi ilə qaynaq aparatlarının satın alınmasına dair

### *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Çatdırılma müddəti, istehsalçı firmanın etibarnaməsi və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 300 manatdır.

Təşkilat: “Azərsu” ASC

**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi halları mövcud olmamalıdır (müvafiq icra hakimiyyəti orqanının arayışı);*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər (“Dövlət satınalmaları haqqında” Azərbayvan Respublikasının Qanununun 6.2-ci maddəsində tələb olunan sənədlər);*
- *malgöndərənlərin (podratçıların) mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 iyul 2021-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə 15 iyul 2021-ci il saat 18:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Elektron satınalmanın açılışı 16 iyul 2021-ci il saat 18:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**

# Məktəblilər arasında "AZERCELL CUP" proqramlaşdırma üzrə müsabiqəyə start verilir

Azərbaycan Respublikası Təhsil Nazirliyi və İnformatika üzrə Milli Olimpiada komandasının məğrur tərəfdaşı "Azercell Telekom" MMC proqramlaşdırma üzrə "AZERCELL CUP" müsabiqəsini elan edir. 5-7-ci sinif şagirdlərinin iştirak edə biləcəyi bu tədbir lider mobil operatorun 25 illik yubileyinə həsr olunub.




Müsabiqəyə qeydiyyat www.olimpiada.edu.az saytı üzərindən iyun ayının 10-dan 20-dək davam edəcək. Birinci tur onlayn şəkildə iyun ayının 27-də baş tutacaq. İki mərhələdən ibarət müsabiqənin final turu növbəti tədris ilinin əvvəlinə planlaşdırılıb. Qaliblər beynəlxalq olimpiadalara hazırlıq dərslərinə dəvət olunacaqlar.

Qeyd edək ki, müsabiqənin əsas məqsədi rəqəmsal texnologiyalara, informatika elminə, kompüter mühəndisliyi və proqramlaşdırmaya marağı olan məktəblilərə dəstək olmaq, onların fərdi və elmi inkişafına töhfə verməkdir.

Xatırladaq ki, 2017-ci ildən etibarən informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgələrindən və paytaxt məktəblərindən olan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 25 medal qazanıblar.

Müsabiqə haqqında əlavə məlumat üçün info@olimpiada.edu.az elektron ünvanına müraciət edə bilərsiniz.

## Azercell abunəçilərinin nəzərinə

